www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxananın təqdimatında

# Zəfərə addım-addım

Qumru Qüdrət Naxçıvanlı

2024

YYSİB - 2024




***Qumru Qüdrət Naxçıvanlı***

**Zəfərə addım-addım**

**Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi**

**www.kitabxana.net**

**Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında**

**"Kulturoloji innovasiya: Qarabağ Zəfəri haqqında interaktiv e-kitabların hazırlanması" layihəsi seriyasından**

**"e-Zəfərnamə silsiləsi"**

**Elektron kitab N 19 (11 - 2024)**

**Bu elektron nəşrlər Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Kulturoloji innovasiya: Qarabağ Zəfəri haqqında interaktiv e-kitabların hazırlanması" kulturoloji-innovativ layihəsini həyata keçirən Yeni Yazarlar və Sənətçilər İctimai Birliyininnin reallaşdırdığı fəaliyyətlər çərçivəsində çərçivəsində hazırlanaraq yayımlanır.**

***Qumru Qüdrət Naxçıvanlı***

**Zəfərə addım-addım**

## "Kulturoloji innovasiya: Qarabağ Zəfəri haqqında interaktiv e-kitabların hazırlanması"

**Kulturoloji layihənin maliyyələşdirən qurum:**

**Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi**

https://ngogrant.az/

**Xüsusi qeydlər:**

1. Bu elektron kitablar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır. Çap ediləcək materialların mövzusu Agentliyin mövqeyini əks etdirmir. Bu e-kitablarının məzmunu Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin cavabdehliyindədir: bu baxımdan kitabların məzmunu Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.

**2. Saytın bu bölümü Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə hazırlanmışdır. Saytın mövzusu Agentliyin mövqeyini əks etdirmir. Saytın məzmunu Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin mövqeyini əks etdirmir.**

**Silsiləyə daxil edilən elektron nəşrləri buradan izləyin:**

**https://kitabxana.net/e-library.php?cate=202**

**Rəsmi FB səhifəmiz:**

**www.facebook.com/kreativlayihe**

**www.facebook.com/groups/kitabxana**

# Qumru Qüdrət Naxçıvanlı

# Zəfərə addım-addım

Poetik vətənpərvərlik toplusu

**Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb**

**Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2024**

**Virtual redaktoru və e-nəşrə hazırlayanı:**

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq, Prezident təqaüdçüsü**

**Bu e-nəşr II Qarabağ - Vətən müharibəsində qazanılan Zəfər haqqında qələmə alınan poetik-vətənpərvərlik şeirlərdən ibarət toplunun elektron variantıdır. E-kitab "Kulturoloji innovasiya: Qarabağ Zəfəri haqqında interaktiv e-kitabların hazırlanması" - Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin reallaşdırdığı kulturoloji-innovativ layihə çərçivəsində hazırlanaraq yayımlanır.**

*Redaktor: Aqşin Sayad oğlu Ləzgiyev*
*Dizayner: Telli Sənəm Borçalı*
*Korrektor: Elxan Cəfər oğlu Əsədov*

***Qumru Qüdrət Naxçıvanlı. "Zəfərə Addım-Addım"-2021-172 səh. "Elm və Zəka" mətbəəsində çap olunmuşdur.***

Kitabda çap edilmiş şeirlərin əksəriyyəti 44-günlük Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman şəhidlərimizin nurlu xatirəsinə ucalan qəhrəman şəhidlərimizin nurlu xatirəsinə və qəhrəmanlıq salnaməsi yazan qazilərimizə ithaf olunur. Kitabda həmçinin müzəffər ordumuzun Zəfər sevincini, qələbəyə səsləyən şeirlər də işıq üzü görüb. Bu kitab müəllifin oxucularla 6-cı görüşüdür. İnanırıq ki, kitabı oxucular maraqla qarşılayacaqlar.

***© Qumru Qüdrət Naxçıvanlı***

***ISBN 978-8020-1907-7-5***

**Müəllifin digər e-kitabları:**
**https://kitabxana.net/author.php?author=898**

**DİQQƏT!**
**Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.**

*Qumru Qüdrət Naxçıvanlı*



# Zəfərə Addım-Addım

***Təkrar***

Bakı -2024

*Redaktor: Ləzgiyev Aqşin Sayad oğlu*

*Dizayner: Telli Sənəm Borçalı*

*Korrektor: Əsədov Elxan Cəfər oğlu*

*Qumru Qüdrət Naxçıvanlı.“Zəfərə Addım-Addım”-2021-172 səh.*

*“Elm və Zəka” mətbəəsində çap olunmuşdur.*

*Kitabda çap edilmiş şeirlərin əksəriyyəti 44-günlük Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman şəhidlərimizin nurlu xatirəsinə ucalan qəhrəman şəhidlərimizin nurlu xatirəsinə və qəhrəmanlıq salnaməsi yazan qazilərimizə ithaf olunur. Kitabda həmçinin müzəffər ordumuzun Zəfər sevincini, qələbəyə səsləyən şeirlər də işıq üzü görüb. Bu kitab müəllifin oxucularla 6-cı görüşüdür. İnanırıq ki, kitabı oxucular maraqla qarşılayacaqlar.*

*“Gənclik” nəşriyyatı*

*© Qumru Qüdrət Naxçıvanlı*

*ISBN 978-8020-1907-7-5*

# Vətən sevgisi, insanın mənəvi varlığının məhək daşıdır

Vətən sevgisi, insanın ruhi-psixoloji dünyasına açılan hikmət qapısıdır. Vətən sevgisi, insanın ən müqəddəs könül dünyasının həyat işığıdır. İnsanın mənəvi varlığının məhək daşı kimi, Vətən sevgisi ilə insan öz mənəvi bütövlüyünü tanıdır. Hikmət qapısının könül açılımı ilə, Vətənin səadətini təmin edir insan.
Ruhun həyat işığı ilə, insan öz həyati-psixoloji ruhundan yaranan duyğularla yaşayır.
Çağdaş şeirimizin sıralarında öz ədəbi dəsti-xətti ilə seçilən Şairələrimizdən biri də Qumru Qüdrət Naxçıvanlıdır.

Qumru Qüdrət Naxçıvanlının lirikası ictimai həyatın zaman içərisində dövr edən yaşamının həyat qaynağı kimi, insanın sosial-ruhi varlığının həyati baxışını ortaya qoyur...

***

*Yenə gündəliyi əlimə aldım,*
*Baxaraq dəftərə xəyala daldım...*
*Sənlı günlərimi, yadıma saldım,*
*Səni öz yanımda, sandım bu gecə!*
*Göz yaşı axıdıb, sildim  gizlcə!*
*Yenə xatırladım, olub - keçəni,*
*Sənlə keçirdiyim, gündüz - gecəni...*
*Hıçqırıb xəlvəti, çəkdim içimi,*
*Buludtək boşalıb, doldum by gecə!*
*Göz yaşı axıdıb, sildim  gizlicə!*

***

44 Günlük, - İkinci Qarabağ Savaşı, /2020- ci ilin 27 Senytabrı - 8 Noyabrı / Əsrin ən böyük, düşmənə qarşı Zəfər savaşlarından biridir ..
44  Günlük , - İkinci Qarabağ savaşı / 2020 -ci ilin Sentyabrı - 8 Noyabrın/ Əsrin ən müqəddəs Qələbə savaşlarından biridir.
44 Günlük, - İkinci Qarabağ savaşı, /2020 - ci ilin Sentyabrın - 8 Noyabrı/ Əsrin, ən ülvi Azadlıq savaşlarından biridir.
Erməni faşizminin Otuz illik əsarətinə qarşı, İkinci Qarabağ savaşı zamanı geridə qoydu.
Ermənistan silahlı qüvvələrinin işğalçılıq siyasətinə qarşı Zəfər çalan Azərbaycan Ordusunun əsgəri və zabiti öz qəhrəmanlıqları ilə şöhrət və Şəhidlik zirvəsinə yüksəldir.

Erməni qəsbkarlarının azğın əməllərini birdəfəlik həyat ideallarının qarşısına sədd çəkdilər öz canları ilə.
Qumru Qüdrət Naxçıvanlının lirikasındakı, zamanın həyat tablosundakı yeri, olduqca mükəmməl həyat dəyərlərinə söykənir.

***

*Vətənim, torpağım, millətim deyən,*
*Vətən çağıranda, hazıram deyən!*
*Vətənə canını, qurban eyləyən,*
*Yaşasın igidlər, var olsun ərlər!*
*Bayraq tək ucada, olsun həmişə,*
*Vətənçün, can qurban, verən Şəhidlər!*

*Vətənə ürəkdən, anamsan deyən,*
*Vətən darda olsa, köməyə gələn!*
*"Kəfən" əvəzinə, "Bayrağı" geyən,*
*"Bayrağa bükülüb", geri dönənlər,*
*Bayraq tək ucada, olsun həmişə,*
*Vətənçün, can qurban, verən Şəhidlər!*

***

Əsgər, Vətənin namusunu qoruyan el qəhrəmanıdır. Əsgər, Vətənin səadətini hər şeydən üstün tutan el oğludur. Əsgər, Vətənin sərhəddinin keşiyində dayanan el təmsilçisidir. Vətən namusu, ailə namusudur, Vətəninin sevən üçün.Vətənin səadəti, insanın həyat səadətinin bir parçasıdır.
Vətənin sərhəddi, insanın mənəvi dünyasının həyat varlığının özüdür.

Qumru Qüdrət Naxçıvanlının lirikasındakı, qəhrəman əsgər obrazı, /Xüsusi təyinatlı, Naxçıvanlı Bayramov Yaqub Əli oğluna həsr etdiyi "Qalib Əsgər " şeiri, ... Vətən uğrunda canının qurban vermiş qəhrəmanların həyat obrazı kimi müqəddəsdir.

***

*Xüsusi təyinatlı,*
*Mərd-igid Yaqub, sən də..*
*Xalqına, arxa durdun,*
*Çətin gündə, dar gündə.*

*Naxçıvan igidi, sən,*
*Yollandın Qarabağa...*
*Ermənini qovaraq,*
*Yurdundan çıxarmağa.*

***

Qərənfil gülü, güllərin ən gözəli olsa da, Şəhid məzarlarının ruhunu oxşayır. Qərənfil gülü, güllərin sevimlisi olsa da, Şəhid məzarlarını bəzəyir. Qərənfil gülü, güllərin kədərini də, sevincini də özündə daşısa da, Şəhid məzarlarının doğmasıdır.
Şəhid məzarların ruhunu oxşayan qərənfil gülü, kədərin gülü kimi dəyərləndirilir.
Güllərin sevimlisi olan qərənfil gülü, Şəhid məzarlarının ruhunu yaşadır öz-özlüyündə...
Kədər doğulduğu andan etibarən qərənfil gülü doğmalaşdırır özünü, Şəhidin ruhunu yaşatmağa...
Qumru Qüdrət Naxçıvanlının lirikasındakı kövrək duyğuların çılğınlığında insanın mənəvi dünyasının həyat gerçəkliyi dayanır.

***

*Bəzəyisən məzarının,,*
*Bizim, əziz Şəhidlərin!*
*Düzülürsən, məzar üstə,*
*Boynu qırıq, al güllərim!*

*Anaları, ağlar görüb,*
*Buna sən də, üzülürsən!*
*Rəngi solmuş, boynu qırıq,*
*Məzarlar üstə düzülürsən!*

***

İkinci Qarabağ savaşının, qələbə rəmzindən biri "Xarıbülbül " oldu. "Xarıbülbül" ün qələbə rəmzinə dönməsinin səbəbi, Vətən torpağına olan məhəbbətdədir. Düşmənə qarşı mübarizə, xalqın milli-mənəvi dəyərlərinə olan sevgisinin gücünə bağlanmasındadır. Ruhun psixolojik analizi, özünün həyati-fəlsəfi baxışı ilə seçilir daima.

Qumru Qüdrət Naxçıvanlının lirikasındakı həyati düşüncənin həyati-psixoloji ruhu, zamanın dərdlərini unutmamaq üçün vasitədir.
Şairənin lirikasının həyat semantikası, Vətən sevgisinin sədasını duyurur oxucusuna.

***

*Bax, sevinir Xarıbülbül,*
*Məğrur dayan, məğrur gülüm!*
*Biz qalibik, - Zəfər, sənin,*
*Zəfər, - Xalqın, - Zəfər, mənim!*

*Qarabağım, azad oldu,*
*Gözün aydın, qərənfilim!*
*Qisasları alınıbdı, -*
*Rahat yatsın, Şəhidlərim!*

***

Şəhid anası obrazı, İkinci Qarabağ savaşında yaranan əsil ruhun həyat obrazlarından biridir.
Şəhid anası obrazı, İkinci Qarabağ savaşında canından keçən Vətən oğullarının parlaq xatirəsini ehtiramla yad edən obrazlardandır.
Şəhid anası obrazı, İkinci Qarabağ savaşında formalaşan ictimai dəyərlərin həyat ideallarının obrazlardandır. Qumru Qüdrət Naxçıvanlının lirikası, İkinci Qarabağ savaşının Zəfərlə başa çatmasının şeirlərinin Şəhid anası obrazı ilə təcəssüm etdirir.
Şairənin qəlbinin mənəvi işığı, Şəhid anası obrazının canlılığı və müqəddəsliyinə inam yaradır.

***

*Aslan tək, "düşməni" eylədi al-qan,*
*Qanla, torpağını suladı Şəhid!*
*Övladını verən, Vətənə qurban,*
*"Özüm də, qurbanam"!, - Vətənə dedi!*
*Belə ləyaqətdir, Şəhid Anası!*
*Bizə əmanətdir, Şəhid Anası!*

*Dedi, -" Balam mərddi, Şir tək vuruşdu",*
*Düşmənə "dağ" çəkdi, olsa da Şəhid!*

*Düşmən bağrın dəldi, - Onun duruşu,*
*"Qara saç"larını, " dümağ" daradı..*
*Belə bir qeyrətdi, Şəhid Anası!*
*Bizə əmanətdir, Şəhid Anası!*

***

Poeziya hisslərin dünyası ilə, həyatın rəngini də özündə daşıyır. Poeziya Zamanın dərdlərini unutmamaq üçün, həyatın sirli-sehrli dünyasını idrak etdirir insana. Poeziya insanınn həyat ideallarının könül duyarlılığını sərgiləyir daima və onu həyatın zirvəsinə yüksəldir. Qumru Qüdrət Naxçıvanlının lirikası ictimai həyatın zaman içərisində yaranan fikir-düçüncə gözəlliyini aydına çıxarır. Şairənin lirikasının həyat semantikası, Vətən sevgisinin sədasını duyurmaqla tarix səhnəsinin ağır dərdlərini yaddaşlarda yaşadır. Şair Qumru xanım Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Şairənin poeziyası öz vətənpərvər ruhu ilə seçilir…
Səkkiz kitab müəllifi, "Telli Sənəm " ədəbi - bədii, publisistik jurnalının müxbiri kimi daima Şəhid ailələrinin yanındadır Şairə.
"Zəfərə addım-addım " şeirlər kitabı Şairənin lirikasının həyat ruhunu artıran kitablardandır.
Uğurlar arzulayıram şairə xanıma.

***Hörmətlə: Filoloq, Nəsib Abid***





*Ulu Öndər Heydər Əliyev*

*və onun oğlu Azərbaycan Respublikasının*

*Prezidenti cənab İlham Əliyev*

# Zəfərə addım-addım

## *Müəllifdən*




*Əziz oxucularım!*

*Mən 2021-ci ildə İkinci Qarabağ Vətən müharibəsinin qələbə ilə başa çatması münasibəti ilə nəşr etdirdiyim sayca altıncı, "Zəfərə addım-addım" adlı kitabımda şəhidlərimizin əziz xatirəsinə, igid qazilərimiz, müzəffər ordumuz, qalib sərkərdəmiz və I Qarabağ müharibəsi şəhidləri haqqında yazdığım vətənpərvər şeirlərimi dərc etdirərək sizlərə təqdim etmişdim.*
*İndi də, əziz oxucularım, çoxunuzun istək və xahişi ilə, sizin istəklərinizi nəzərə alaraq, bu kitabın yeni tərtibatla təkrar çıxararaq sizlərə təqdim edirəm.*

# Ulu Öndərim

Şanlı vətənimin igid övladı,
Dünyaya tanıtdın Azərbaycanı.
Neftini dünyaya çatdırmaq üçün,
Yazıb imzaladın “Bakı Ceyhanı”.

Görərək nə qədər xeyirli işlər,
Tarixə yazdırdın “Heydər” adını.
Rahat yat məzarda sən Ulu Öndər,
Xoş günlər gözləyir, Azərbaycanı.

"Fəxr edirəm" dedin "Azərbaycanlıyam",
Xalqım da öyünür sənin adınla.
Oğlun addımladı sənin yolunla,
Xalqımız fəxr edir bu gün İlhamla!

Elə böyütmüsən sən öz oğlunu,
Haqsızda qoymadı o,öz haqqını.
Siyasət yürütdü elə döyüşdü,
Yağıdan qaytardı torpaqlarını.

Qalib ordumuz var, əsgərimiz var,
Vətənçün can verən Şəhidimiz var.
Zəfər qazanmışıq, qalib olmuşuq,
İlhamtək yenilməz sərkərdəmiz var.

Xalq ilə birləşib,bir yumruq oldu,
Xalqın ürəyinə sevgiylə doldu.
Rahat yat, məzarda Ulu Öndərim,
İlham gedən bu yol Heydər yoludu,
İlham gedən bu yol haqqın yoludu!



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev*

## O gedir Ulu Öndərin yolu - iziylə

*Ali Baş Komandana*

Peyğəmbər nuru var onun üzündə,
Əbbasın sözü var ötkəm sözündə.
O gedir Öndərin yolu - iziylə,
Bu yoldan kənara addım atılmaz,
Heç kimsə batmayıb ona, batammaz.

Yağı düşmınlərin çatıbdı sonu,
Ulu Tanrım özü qoruyur onu.
Heydər öyrədibdi igid oğlunu,
Siyasətdə kimsə ona çatammaz,
Kimsələr batmayıb, ona batammaz!
Heydər övladıdır, İlhamdır rəhbər,
Xainlər çalışsa bilin nə qədər,
Yetirə bilməzlər ona bir xətər,
Əlləri daş tutsa, ona atammaz,
Allah qoruyana, kimsə batammaz.

Siyasət yürüdər ağıllı başla,

Sülhlə qalib gələr, deyil savaşla.
Gücün birləşdirər o türk qardaşla,
Bu dostluq bitməyib, heç zaman bitməz!
Kimsələr batmayıb, ona batammaz.

Düşməndən alacaq torpaqlarını,
Qaytarar elinə yurd-oylağını.
Yurda qaytarmasa oz növrağını,
Gecələr göz yumub, rahat yatammaz,
Kimsələr çatmayıb, ona çatammaz.

Peyğmbər nuru var onun üzündə,
Əbbasın sözü var ötkəm sözündə.
O, gedir Öndərin yolu- iziylə,
Heydərin öyüdün, İlham unutmaz,
Bir kimsə batmayıb, ona batammaz.

# *Əmiraslan Rza oğlu Əliyev*

***30 avqust 1960, Naxçıvan – 17 mart 1995, Bakı***

***Azərbaycanın Milli Qəhrəmanı.***



Əmiraslan Əliyev 30 avqust 1960-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. 1967–1977-ci illərdə Ü. Hacıbəyov adına Naxçıvan şəhər 1 saylı orta məktəbində təhsil almışdır. 1977–1979-cu illərdə Naxçıvan Şərabçılıq Zavodunda fəhlə işləmişdir. 1979–1981-ci illərdə SSRİ Silahlı Qüvvələrində xidmətdə olmuşdur. Bir müddət Ukrayna respublikasında, sonra Polşada hərbi xidmətini davam etdirmişdir. 1981–1982-ci illərdə Naxçıvan şüşə Qablar Zavodunda, 1982–1992-ci illərdə isə Vayxır Su-Tikinti İdarəsində fəhlə içləmişdir. İstehsalda çalışmaqla yanaşı, o, təhsilini də davam etdirməyi unutmamışdır. 1982–1987-ci illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitunun tarix-filologiya fakültəsində təhsil almışdır. 1992-ci ildə Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin sərhəd qoşunlarında hərbi xidmətə çağırılmışdır. Baş leytenant Əmiraslan Əliyev xidmət etdiyi hərbi hissə tərəfindən 8 oktyabr 1994-cü ildə Fəxri fərmanla təltif edilmişdir.

Əmiraslan Əliyev 17 mart 1995-ci ildə Mart hadisələri zamanı Azərbaycan Respublikasında dövlət çevrilişi cəhdinin qarşısının alınmasında XTPD-nin komandiri Rövşən Cavadovu yaralayaraq sonra həlak olmuşdur.

Ailəli idi. Üç övladı yadigar qalıb.

Azərbaycan Resrublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Əliyev Əmiraslan Rza oğluna ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Naxçıvan şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

"N" saylı sərhəd zastavasında qəhrəmanın xatirə otağı açılmış və büstü qoyulmuşdur. "N" saylı sərhəd məntəqəsinə Ə. Əliyevin adı verilmişdir.



# Gördüm




*Azərbaycanın Milli Qəhrəmanı, şəhid baş leytenant*
*Əmiraslan Rza oğlu Əliyevin əziz xatirəsinə*

Hələ tanımırdım səni sağ ikən,
Şəhidim, şəklində üzünü gördüm.
Daş altından baxan mərd baxışlarda,
Məğrurluq  hissini gözündə gördüm.
Qövs kimi çəkilən qara qaşların,
Qartaltək havada süzməyin gördüm.
Şığıyıb üstünə yağı düşmənin,
Şahintək boğazın üzməyin gördüm.
Sənin baxışında mərd, igid aslan,
Mübariz əsgərin yüzünü gördüm!
Şəhidlər ölməyir, yaşayır hər an,
O, məğrur baxışda özünü gördüm.
Susmayıb, danışan lal baxışlarda,
Ürəyin dolusu sözünü gördüm.
Daş altından baxan o gözlərində,
İnsanlıq, igidlik rəmzini gördüm.
Məzarın başında məğrur dayanan,
Atanda o qürur hissini gördüm.
Məzarın yanında səssizcə duran,
Gözünü gözündən heç ayırmadan,

Xəyalən o sənli günə qayıdan,
Bacının o nəmli gözünü gördüm.
Ata arzulayan körpə balanı,
Göz yaşı axıdan qızları gördüm.
Göz yaşı üzünə hərdən süzülən,
Göz yaşın gizlədib, dərddən üzülən,
Yanında dayanan qəmli ananın,
Qüssədən saralan üzünü gördüm.
Başının üstündə duran qardaşın,
Hərdənbir çatılan qara qaşların,
Hərdən fikrə gedən, hərdən ayılan,
Hərdən qürurlanan, üzünü gördüm!
Məzarın önündən keçəndə məndə,
Adını oxudum Milli Qəhrəman!

Çiyninin üstündə par-par parlayan,
Cərgəylə düzülmüş üç ulduz gördüm!
Keçmədim! Önündə ayaq saxladım.
Fəxri gözətçitək durdum yanında.
Məzarın yanında durub ağlayan,
Elin çox gəlinin, qızını gördüm.
Daş altında yatan bu igid, ərin,
Özü qəhrəmandı, adı Əmiraslan!
Üzünə baxanda qanlı cəbhədə,
Düşmənlə aslantək vuruşun gördüm.
Şəhidlər məzarı el vəhdətliyi,
Xalqımın buraya axışın gördüm.
Məzara gül qoyan körpə uşağın,
Gözündə qorxmazlıq izini gördüm.
Asta yeriş ilə keçəndə burdan,
Qocanın,cavanın,qadın, kişinin.
Ağbirçək ananın,cavan gəlinin,
Nazirin, həkimin, zabit, alimin.
Məzara gül qoyan Vasif müəllimin
Üzündə hökm sürən "hüzün"ü gördüm.
Məzarın yanında ayaq saxlayan,
Məzarın üstünə əklillər qoyan.
Dayanıb səninçün rəhmət oxuyan,
Xalqımın mərd oğul, qızını gördüm.
Sənə rəhmət dedim Milli Qəhrəman,
Məzarın yanında məğrur dayanan.
Elvinin sənintək duruşun götdüm.
Vətənin uğrunda şəhid olubdu,

Sənintək neçə mərd, igid qəhrəman
Ruhunuz qarşısında baş əyərək mən
Rəhmət diləyirəm uca Allahdan.
Şəhidlər ölməzdir, yaşayır onlar,
Onların əbədi izini gördüm.
İnşəAllah ki, bir gün Milli Ordumuz,
Düşmən izlərini silər vətəndən,
Onda alınacaq sizin qanınız.
Qisas alınacaq yağı düşməndən.
Rəhmət diləyərək mən Qumru Qüdrət,
Əmin eyləyirəm, səni, şəhidim!
Qələbə çalanda Milli ordumuz,
Rahatlıq tapacaq sizin ruhunuz!

20-01-2001

## Birinci Qarabağ şəhidi
## Canpolad Əsgərov



O, 1993-cü il dekabr ayının 10 - da Naxçıvan şəhərində dünyaya göz açıb. 1980-ci lidə o, Naxçıvan şəhər 39 saylı məktəbin 1-ci sinfinə qədəm qoyub. 1990-cı ildə həmin məktəbin 10-cu sinfini bitırmişdir. 1991-ci ildə həqiqi hərbi xidmətə çağırılan Canpolad Əsgərov 1992-ci il may ayının 18-də ermənilər ağır zirehli texnıka ilə Sədərək üzərinə həmlə edəndə bir çox igidlərimiz kimi o da, həmin döyüşlərdə fəal iştirak etmiş və qəhrəmanlıqlar göstərmişdir. O, "Qaraağac", "Ərdəkan", "Cin təndiri", "Başbarmaq" postları tərəfindən Sədərək üzərinə olan düşmən hücümlarının qarşısının alınmasında fəal döyüşçü kimi tanınmışdı. Döyüşlərdə şücaət göstərən bu gənc 1992-ci il iyul ayının 21-də "Qaraağac" uğrunda gedən ağır, qanlı-qadalı döyüşlərdə qəhrəmanlıq göstərərk ən ali məqama, şəhidlik zirvəsinə ucalmışdır.

Canpolad Əsgərov Naxçıvanda şəhidlər xiyabanında böyük izdihamla dəfn olunub. Allah cəmi şəhidlərimizə rəhmət eləsin.

# Vətən səni unutmaz, qəhrəman şəhidim

***Birinci Qarabağ müharıdəsi zamanı Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu uğrunda şəhid olmuş Canpolad Ağaverdi oğlu Əsgərovun əziz xatirəsinə***

Vətən üçün qurban etdin canını,
Axıtdın torpağa qızıl qanını.
Qorudun vətəni yağı düşməndən,
Ucaltdın vətənin şöhrət-şanını.

Sən ey vətənimin mərd, igid oğlu,
Sədərəkdən keçib, şəhidlik yolun.
Heç zaman sınmadın düşmən önündə,
Hörmətin qazandın böyük bir elin.

Rəhmət söyləməyə varmayır dilim,
Şəhidlər ölməyir, yaşayır hər an.
Adın dastan oldu doğma vətəndə,
Adını şəhidtək yaşadır cahan,
Səni unutmaz ki, doğma Naxçıvan!

## Qarabağ Azərbaycandır

Qarabağ yad əldə olduğu zaman,
Səhər sübh tezdən sökülәndə dan,
Üz tutdum Günəşə, soylədim ona:
- Nə olar oyanma, sən gəlmə cana.
Gözünü sən açma torpaq yad əldə,
Oraya nur saçma bir az səbr eylə.
Budur səhər tezdən oyanmışam mən,
Pəncərə önündə dayanmışam mən.
Günəş niyə çıxmır, niyə oyanmır?!
Günəşə dil toküb, yalvarıram mən,
- Qalx, oyan, ey Günəş! Sən aç gözünü,
Təcili tez yetir ora özünü.
Ordumuz qaytarıb torpaqlarımı,
Sevincək alıram soraqlarını!
Ey Günəş, qalx, oyan, Şuşaya nur saç,
Qar - buzları ərit, Laçına yol aç.
Alınıbdır, bax, Füzuli, Zəngilan,
Cəbrayıl, Qubadlı azaddır inan!
Ordumuz alıbdır Suqovuşanı,
Yayılıb dünyaya İlhamın şanı,
Sevinir bu işə bütün xalqımız,
Yerdə qalmayıbdır şəhid qanımız!

Zəfərlə vuruşur məğrur ordumuz,
Azad olunubdur doğma yurdumuz.
Əmri veribdi Ali Baş Komandan,
"Haydı get irəli bir an durmadan",
Əzm ilə döyüşə gedir mərd əsgər,
Qorxmayır yağıdan ərənlər-ərlər!
Hər kəndə asırlar üçrəng bayrağı,
Qələbəmizin hey, gəlir sorağı.
Sən parla, ey Günəş, nur saç yurduma,
Allahım güc versin qalib orduma.
Bizim mərd ordumuz qalib olacaq,
Düşməni tezliklə yurddan qovacaq.
Yenə də, Qarabağ bizim olacaq,
Qarabağ bizimdir, bizim qalacaq!
Rahat yat, ey şəhid, qanınıza qandır,

Pilotsuz pualar " iti qovandır",
Belə söyləyibdir:- Ali Baş Komandan,
Qarabağ bizimdir, Azərbaycandır!
Qumru da, söyləyir mənfur dığalar,
Yurduma soxulan alçaq oğrular.
Bir dəfəlik bilin bunu, yağılar,
Qarabağ Azərbaycandır!

25.10.2020

## Əzminizə qurban olum

Bizim Ali Baş Komandan,
Ordumuza əmr verdi.
Hazır olun ərənlərim,
"Düşmən üstə hücum" - dedi.
Torpaqları qaytar deyən,
Liderimin bu aldığı,
Qərarına qurban olum!
Əsgərlərə əmr verən,
Liderimə qurban olum!
Siz qaytarın torpaqları,
Dayanmayın, Marş irəli,
Ön cərgədə addımlayan,
İgid, qorxmaz əsgərlərim,
Əzminizə qurban olum!
Aslan kimi nərə çəkən,
Düşmənlərin bağrın sökən,
Vətənimin uğurunda,
Düşmənlərin qanın içən,
İgid kimi candan keçən,
Şəhidlərə qurban olum!
Vətənin hər qarışına,
Azərbaycan bayrağını,
Qürur ilə daşıyanlar,
Azərbaycanın himnini,
Səngərlərdə oxuyanlar,
Səsinizə qurban olum,
Əzminizə qurban olum!
Yağı düşmən tapdağında,
Sızıldayan torpaqları,
Neçə ildi yad əllərdə,
Qalan buzlu bulaqları,
Siz qaytardız igidlərim.
Qisas hissiylə alışan,
Qəlbinizə qurban olum!
Siz İlhamın övladları,
Ulu öndər nəvəsisiz,
Öndər qoyan yolunuzla

Liderimin arxasınca,
Marş, irəli, Qarabağa!
Bayraqları Xan Şuşaya,
Sancan əsgər, zabitlərim,
Çavuşlarım, qazilərim.
Uğurunuza qurban olum!
Mən ümumi xalqımıza,
Xalqımıza qurban olum!
Qələbə çox yaxındadır,
Əziz ana, gözün aydın.

Qoy bu gündən rahat yatsın,
Şəhidlərim məzarında.
Şəhidlərin hüzuruna,
Məzarına qurban olum!
Qələmiylə cəng eyləyən,
Mənim şair qardaşlarım,
Təbinizə qurban olum!
Siz qələbə nəğməsini,
Yazın şair qardaşlarım.
Vətən üçün  yazdığınız,
Sözünüzə qurban olum!
Gözün aydın, ey millətim,
Sevincindən yaş axıdan,
Gözünüzə qurban olum!
Qumru deyər, qalib ordum,
Mənim qalib Komandanım,
Çaldığınız hər zəfərə,
Qələbəyə qurban olum!
Hər bir zaman mətin olan,
Xalqımıza qurban olum!
Bu zəfərə sevinənlər,
Hamınıza qurban olum!

08.10.2024

# Azərbaycanın Milli Qəhrəmanı
## *Polad Həşimov*

***2 yanvar 1975, Vəndam, Qutqaşen rayonu – 14 iyul 2020, Tovuz rayonu. Azərbaycanın Milli Qəhrəmanı; Azərbaycan Silahlı Qüvvələrinin general-mayoru; Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Komandir müavini, Qərargah rəisi (2017–2020)***



***Azərbaycanın Milli Qəhrəmanı***
***şəhid General-mayor Polad Haşımovun***
***əziz xatirəsinə***

Qəbələdə doğuldun,
Sumqayıtda yaşadın.
Əyilməz amalın var,
Poladdır sənin adın.
Adını sənin Polad,
Qoymayıblar nahaqdan,
Şəhidlərin qisasın,
Sən almısan bədhaqdan.

Sən Talış zirvəsində,
Döyüşmüsən nər kimi,
Düşmənə "toy" tutmusan,
Vuruşmusan ər kimi.

Daşkəsəndə,Murovda,
Qan uddurdun sən yada,
Xalqımız qürur duyur,
Sənintək övladlarla.

Sən mənfur duşmənləri,
Qoymadın göz açmağa.
Şəhid olub büküldün,
Sən üçrəngli bayrağa.

Talış məntəqəsinə,
"Polad"adı qoyublar,
Azərbaycan gəncləri,
Səndən örnək alıblar.

Qovub mənfur yağını,
Qarabağı alıblar.
44- Günün içində,
Qələbəni çalıblar.

## *Həmdəm Mayıl oğlu Ağayev*

***9 sentyabr 1975, Sırxavənd, DQMV – 9 oktyabr 2020, Füzuli rayonu.***

***Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, İkinci Qarabağ müharibəsi şəhidi***



Həmdəm Ağayev 1975-ci il sentyabrın 9-da Ağdam rayonunun Sırxavənd kəndində anadan olub. Ailəli idi. Bir oğul və bir qız atası idi.

Həmdəm Ağayev 1993–1994-cü illərdə Birinci Qarabağ müharibəsində Ağdərə rayonunun müdafiəsi uğrunda döyüşlərdə iştirak edib. 1994-cü ilin mayında müharibənin bitməsindən sonra Həzi Aslanov adına Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olan Həmdəm Ağayev, 1999-cu ildə ali hərbi təhsilini bitirdi və Azərbaycan Silahlı Qüvvələrinin sıralarında xidmətə başladı.

Həmdəm Ağayev 2000-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan MR ərazisində yerləşən hərbi hissəsində "leytenant" hərbi rütbəsində xidmətə başladı. O, 2003-cü ildə "Baş leytenant", 2004-cü ildə "Kapitan", 2006-cı ildə "Mayor", 2012-ci ildə isə "Polkovnik-leytenant" hərbi rütbəsi aldı.

Həmdəm Ağayev Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2010-cu il tarixli Sərəncamına əsasən "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

2010–2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin 4-cü Ordu Korpusunda xidmət edən Həmdəm Ağayev, 2017–2018-ci illərdə Qusar şəhərində yerləşən "N" saylı hərbi hissənin Komandir müavini — Qərargah rəisi vəzifəsində xidmət elədi.

Həmdəm Ağayev 2018-ci ildən 4-cü Ordu Korpusunun Qərargah rəisi vəzifəsində xidmət edirdi.

Azərbaycan Ordusunun polkovnik-leytenantı olan Həmdəm Ağayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Həmdəm Ağayev oktyabrın 9-da Füzulinin azad edilməsi zamanı şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həmdəm Ağayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.[2]

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarının rəhbəri olan, düşmənin canlı qüvvəsinin məhv edilməsində rəşadət göstərən, vəzifə borcunu ləqayətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Həmdəm Ağayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.[3]

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Həmdəm Ağayev ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

## Oğlumun komandiri

***Birinci və ikinci Qarabağ müharibəsi döyüşlərində iştirak etmiş, şücaətlər göstərmiş və qəhramanlıqla şəhid olmuş Pokovnik-leytenant Həmdəm Ağayev mənim oğlum Nəsibin komandiri olub. Bu şeiri şəhidimizin əziz xatirəsinə ithaf edirəm***

İkimin dörddə, mənim,
Oğlum əsgər olmuşdur.
Kəşfiyyat komandiri,
Onun Həmdəm olmuşdu.
İgid, qorxmaz adamdı,
Çəkinməzdi heç nədən.
Yaxşı bir insan kimi,
Xatırlardım onu mən.
Bir gün mən mediyada,
Onun adın oxudum.
Həmdəm şəhid olubdu,
Oxuyanda udqundum.
Gözümə inanmadım,
Tez zəng etdim oğluma,
Soruşdum:- bu o, Həmdəmdi?!
Söylədi:- bəli, ana.
Telefonda kövrəldi,
İçini çəkib dedi:-
Mənim mərd komandanım,
Yenə qabaqda gedib,
Düşmənləri çox qırıb,
Yenə taktika edib.
Görüb tuzakdadılar,
Qırılacaq çox əsgər,
Şəhidi çox olacaq
İrəli getsə əgər.
Yanından əsgərləri,
Qaytarıbdı geriyə,
Təkcənə vuruşaraq,
Gedibdi irəliyə.
Qırıb, çatıb nə qədər,
Düşmənləri durmadan,

Yaralı olsa belə,
Vuruşub dayanmadan.
Elə taktika edib,
Düşmən bilməyib təkdi.
Elə hər zaman mənim,
Kamandirim zirəkdi.
Yaralı torpaqlara,
Axıdıbdı qanını,
"Vətən sağ olsun"- deyib,
Qurban edib canını.
Ağdamın mərd balası,
Öz torpağı uğurunda,
Şəhidlər sırasına,
Yazdırıbdı adını.
Bütün şəhidlər kimi
Səndə ölməz olmusan,
Sən bütün xalqımızın
Ürəyinə dolmusan.
Ağdamda ucalıbdı,
Dalğalanır bayrağın,
Qalib Azərbaycanımın
Dünya alıb sorağın.
Ey igid, Həmdəm oğlum,
Rahat yat, məzarında,
Adın çəkilir hər an,
Yaxşıların yanında.
Qumru da, sənin anan
Səni unutmaz inan.
Hər zaman xatırlayıb,
Sənə oxuyar "Quran"
Ey ölməz şəhidlərim,
Yeriniz cənnət olsun!
Yaşasın Milli Ordum,
Azərbaycan var olsun!

20-10-2021

# *İlkin Cəfər oğlu Rzayev*



***28 iyul 1984, Əlikli, İliç rayonu – 2 oktyabr 2020, Murovdağ***

***Azərbaycan Silahlı Qüvvələrinin mayoru, "Murov aslanı"***

***ləqəbi ilə tanınan Vətən Müharibəsi şəhidi.***

Mayor Rzayev İlkin Cəfər oğlu 1984-cü il iyulun 28-də Şərur rayonu Əlәkli kəndində anadan olub.

O, orta təhsilini 1990–1995-ci illərdə Suraxanı rayonu 270 nömrəli məktəbdə, 1995–2001-ci ildə isə Nizami rayonu 250 nömrəli məktəbdə alıb. 2002-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2006-cı ildə hərbi məktəbi bitirərək "Leytenant" rütbəsini alır.

Ailəlidir, Nur və Əli adında iki övladı var.

2006–2007-ci ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Təlim Tədris Mərkəzində zabit kimi təkmilləşdirmə kursunu keçərək, Azərbaycan Ordusunda xidmətə başlamışdır. 2009-cu ildə "Baş Leytenant", 2013-cü ildə "Kapitan", 2017-ci ildə isə "Mayor" rütbəsinə yüksəlir. İlkin Rzayev hərbi xidməti zamanı daim yüksək hərbi bacarıqlarına görə fərqlənmişdir. 2016-cı ildə Aprel döyüşlərində də aktiv fəaliyyəti olmuşdur. Azərbaycan Ordusunun Mayoru olan İlkin Rzayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin

azad edilməsi uğrunda başlanan Vətən Müharibəsində iştirak etmiş və döyüşdə öz qəhrəmanlığı, qətiyyəti ilə fərqlənmişdir. Onun son vəzifəsi "Döyüş hazırlığı bölmə rəisi" olmuşdur. O, təxminən 40 nəfərə yaxın şəxsi heyəti olan qrupu mühasirədən xilas edərək 2 oktyabr 2020-ci ildə Murovdağ uğrunda gedən döyüşlərdə şəhid olur. İkinci Fəxri Xiyabanda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli sərəncamına əsasən İlkin Rzayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında şəhid olmuş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2021-ci il tarixli sərəncamına əsasən İlkin Rzayev ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

Azərbaycanın Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2021-ci il tarixli sərəncamına əsasən İlkin Rzayev ölümündən sonra "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edildi.



# Can mayorum

***Naxçıvanlı şəhid mayor İlkin Rzayevin əziz xatirəsinə***

Döyüşlərə igid kimi,
Gülüb girdin, sən, mayorum.
Əsgərləri öz canından,
Əziz bildin, can mayorum.

Yenə hücum çəkmişdiniz,
Yağıların siz üstünə.
Birdən gördün gəlir düşmən,
Alayının düz üstünə.

"Tez ol! - Girin səngərlərə",
Əmr verdin, sən mayorum.
Hər bir düşən şəhidinə,
Söyləmisən "can", mayorum.

Əsgərləri qoruyaraq,
Özün çıxdın tez irəli,
Üstlərinə od ələyib,
Sən susdurdun düşmənləri.

Qəhrəman tək şəhid oldun,
Doğma vətən uğurunda.
Öz canını qurban verdin,
Əsgərlərə həm də, yurda.

Qalxıb ali məqama sən,
Mələklərə sən yar oldun.
Günəş kimi işıq saçıb,
Doğma yurda sən nur oldun.

Əsgərləri öz canından,
Əziz bildin, sən mayorum.
Alayını qoruyaraq,
Şəhid oldun, can mayorum.

14-11-2021

***

Əziziyəm a dağlar,
Qohum ağlar, yad ağlar.
Çəkəndə şəhid adın,
Dodağıımda ad ağlar.

***

Əzizim, Naxçıvanım,
Böyüyüb çox cavanım.
Həm belə igidlərə,
Həm sənə qurban canım.

# Ülvi Möhsün oğlu Hüseynov

***16 aprel 1988, Sabirkənd, Ordubad rayonu – 7 noyabr 2020, Şuşa rayonu Azərbaycan Silahlı Qüvvələrinin kapitanı, İkinci Qarabağ müharibəsi şəhidi.***




Ülvi Hüseynov 1988-ci il aprelin 16-da Ordubad rayonunun Sabirkənd kəndində anadan olub.

Azərbaycan Ordusunun kapitanı olan Ülvi Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ülvi Hüseynov noyabrın 7-də Şuşanın azad edilməsi zamanı snayper gülləsi nəticəsində şəhid olub. O, Bakı şəhərində 2-ci Fəxri Xiyabanda böyük izdihamla dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Hüseynov "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ülvi Hüseynov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ülvi Hüseynov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ülvi Hüseynov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

# Siz and içdiniz, şəhidlərim

***Naxçıvanlı şəhid kapitan Ülvi Həsənovun əziz xatirəsinə***

Erməni Xankənddə yuva salmışdı,
Şuşanın başını duman almışdı.
Sızlayan Laçının, Kəlbəcərimin,
Qarabağın gözü yolda qalmışdı.
Çağırırdı sizi ərlər- ərənlər,
Mərd kimi düşmənə sinə gərənlər.
Hay verin səsinə, yetişin dada.
Düşməndən qurtarsın dağlar, dərələr.
"Səbrimiz tükəndi, dözmürük daha,
Bu işi qoymarıq dedi sabaha"
Çağırış eylədi Ali Komandan.
Liderə səs verdiz siz də durmadan.
Orduya yollandız, siz and içdiniz,
Bir qarış torpağı verməzik yada.
Vətənin uğrunda candan keçdiniz,
Əbədiyaşarsız siz bu dünyada.
Şəhidlərin adı çəkilən zaman,
Xalq ayağa qalxır,o an hər yerdə,
Səninlə fəxr etsin öyünsün anan,
Şəhid dostlarınla yaşa qəlblərdə.
Ordumuz düşmənə vermədi aman,
Müharibə qurtarıb bitib qarqaşa.
Ey "Pələng" ləqəbli igid qəhrəman,
Azaddır Cəbrayıl, Füzuli, Şuşa!
Ülvi, tək deyilsən, əziz qəhrəman.
Eldarlar, Poladlar, Mübarizlər var.
Qanlarınız yerdə qalmaz heç zaman,
Ordumda hələ çox mübarizlər var.
Qovdular düşməni "iti" qovantək,
Rahat yat, ey şəhid, yerin xoş olsun.
Qəhrəman olmusan adın mübarək!
Müqəddəs məzarın nur ilə dolsun.
Sizlərlə öyünür bütün xalqımız.
Siz yaddan çıxmasız, ey şəhidlərim.
Sizlərə anayıq bizim hamımız,
Yeriniz xoş olsun, ey şəhidlərim.

Sizin sayənizdə tam oldu vətən,
Sizintək şad yatsın Ulu Öndərim.
Vətəndən qovuldu o yoldan ötən,
Başını dik tutsun mənim Rəhbərim!

## Əmrah Şahid oğlu Əkbərov

***21 fevral 1998, Livədirqə, Lerik rayonu – 12 oktyabr 2020, Hadrut***

***Xüsusi Təyinatlı Qüvvələrin leytenantı, Vətən Müharibəsinin şəhidi, "Azərbaycan Bayrağı" ordeni laureatı.***




Əmrah Əkbərov 1998-ci il Fevralın 21-də Lerik rayonunun Livədirqə kəndində anadan olub. 2004-cü ildə Livədirqə kənd orta məktəbinin 1-ci sinifinə gedir. 2005-ci ildə təhsilini Xəzər rayonunda yerləşən 322 saylı tam orta maktəbdə davam etdirir. O, 2013-cü ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuşdur.2016-cı ildə həmin liseyi bitirmişdir.

Əmrah Əkbərov 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbə daxil olmuşdur. 2020-ci ildə məktəbi bitirib Azərbaycan Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələrində leytenant rütbəsi alaraq baş kəşfiyyatçı kimi xidmət etməyə başlamışdır.

Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin leytenantı olan Əmrah Əkbərov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Əmrah Əkbərov oktyabr 12-də Hadrut döyüşləri zamanı həlak olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham

Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əmrah Əkbərov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Əmrah Əkbərov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əmrah Əkbərov ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Əmrah Əkbərov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.[5]

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2021-ci il tarixli Sərəncamına əsasən Əmrah Əkbərov ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi.

## Əziz şəhidimiz Əkbərov Əmrahın anası Dürdanə xanımın xatirələrindən

Dürdanə xanım sözünə belə başladı:

- Biz Lerikdən Bakıya gələndə Əmrah birinci sinfi bitirmişdi. Burada işləməyə başlayan Əmrahın atası Şahid, az sonra xəstələnir. O, Bakıda cəmi dörd il yaşayır və xəstəlikdən cavan yaşında ikən əbədi dünyaya köçür. Allah rəhmət eləsin. Həyat mənim çiynimə ağır yük qoydu. Mən üç oğlan uşağını qərib eldə tək böyütməli oldum..Şükür Allahıma ki, uşaqlarım mənə heç əziyyət vermədilər. Onlar çox ağıllı, qayğıkeş uşaqlar oldu. Heç vaxt biri- biri ilə dalaşmaz, yaxşı yola gedərdilər. İki oğlum başqa, Əmrah bir başqa idi. Əmrah zarafatcıl, şən, çox qayğıkeş, bir az da dəcəl idi. Onlar öz dərslərini hazırlayandan sonra mənə də ev işlərində kömək edərdilər. Əmrah məni bir başqa cür sevərdi o, dərsdən gələn kimi məni qucaqlayar:-ana sən çox yorulursan, sənə qıyammıram deyərdi. Mən boyüyəndə səni işləməyə qoymayacağam, özüm sənə qulluq edəcəyəm. O, çox zarafatcıl idi, mən ona bir iş deyəndə, mənə baş üstə "Rəis" deyərdi.
Onun arzusu hərbiçi olmaq idi. Mən böyüyəndə hərbiçi olacam, Qarabağı özüm düşmənlərdən alacağam deyərdi. Bir dəfə məktəbdən gələndə corabının palçıqlı, sulu olduğunu gördüm, ona niyə corabın palçıqlıdır soruşdum. O, mənə gülə- gülə mən dəcələm də, ona görə palçığa girmişəm.
Bir neçə gün sonra mən bildim ki, onun ayaqqabısı sökülübmüş, mənə bildirməyib, ayağına salafan keçırırmış.
Mən ona məktəbə avtobusla gedib - gəlsin deyə verdiyim pula qənaət edərək pul toplayıb, mənə üzərində "Məkkə" şəkili olan bir hədiyyə alıb gətirmişdi. O, nə iləsə məni sevindirməyi çox xoşlayırdı. Əmrah hər kəsdən fərqlənən bir uşaq idi. Qardaşı Orxan ondan böyük olsa da bir iş görəndə onunla məsləhətləşər, onun dediyi ilə razılaşardı. Eh, o bir başqa üşaq idi, deyə ana göz yaşlarını sildi.

## Əmrah, qəhrəmantək şəhid olmusan

Sən hələ uşaqkən köç etdi atan,
Kam almadı o hec, fani dünyadan.
Səni vətənpərvər böyütdu anan.
Ana öyüdlərin(i) sən doğrultmusan!
Vətənin uğrunda şəhid olmusan.

Böyüdün, bir igid, qorxmaz ər oldun,
Pəhləvan cüssəli, igid nər oldun.
Vətəni, torpağı sevən mərd oldun.
Əzəldən haqqsevər, doğru olmusan,
Haqq savaşa girib, şəhid olmusan.

Vuruşdun düşmənlə çəkinmədən sən,
Qarşında can verdi, titrədi düşmən.
Neçə düşmən leşin yerə sərmisən.
Anadan igidtək sən doğulmusan,
İgidtək döyüşüb, şəhid olmusan.

Qorxmadan minanı əlinə aldın,
Yağı düşmənlərin içinə daldın.
Düşmən alayına vəlvələ saldın,
Əmrah, düşmənlərə qənim olmusan,
Amalın uğrunda şəhid olmusan,

Anan qürur ilə səndən danışır,
Ağlayan gözləri sanki alışır.
Göz yaşların gizlətməyə çalışır,
Fəxr edə biləcək oğul olmusan,
Vətənin uğrunda şəhid olmusan.

Qələmi, dəftəri alıb əlimə,
Ürək ağrısıyla yazıram yenə.
Allah rəhmət etsin şəhidim, sənə,
Deyirəm ki, Əmrah mələk olmusan,
Şəhid  zirvəsinə sən ucalmısan.

Bizim məhəllədə  doğulmusan sən,
Bütün məhəllənin bil ki, fəxrisən.
Mən də, Qumru Qüdrət belə deyirəm,
Yazılıb tarixə nağıl olmusan,
Əmrah, qəhrəmantək şəhid olmusan.

06 - 02 - 2024

# Adınız tarixə yazılıb sizin




***Möhtəşəm Qələbəmizdən sonra ilk dəfə Naxçıvana gedəndə hər kəsdən əvvəl Naxçıvan şəhidlər xiyabanına gedib, ölməz şəhidlərimizi ziyarət etdim, Onlara gözünüz aydın olsun əziz şəhidlərim, dedim və onlarla sevincimi bolüşdüm, ruhlarına "Fatihə" oxudum. Evə gələndən sonra isə əziz şəhidlərimlə danışığımı nəzmə çəkdim.***

***Hörmətli oxucularım, buyurun onu sizlərə təqdim edirəm.***

Nə vaxdır vətəndən qalmışdım uzaq,
Budur Naxçıvana gəlmişəm qonaq.
Özümə borc bildim əziz şəhidlər,
İlk gündə mən gəlim görüşünüzə!
Şəhidlər hər zaman əzizdir bizə,
Şükür gələ bildim ziyarətinizə.
Qarşınızda baş əyib, təzim eylədim,
Göz aydınlığı verdim hər birinizə.
Siz vətən uğrunda qan axıdaraq,
Şəhid zirvəsinə qalxıb ucaldız.
İndi daş altından məğrur baxaraq,
Yağı düşmənlərdən artıq öc aldız!
Vətən azad oldu,torpaq alındı,
Torpağı qaytardı gənc dostlarınız!
Mən sizə danışım məğrur ordudan
Deyimki, var olsun Komandanımız!

Birləşdi bir oldu rəhbərlə ordu
Birgə azad etdi, o doğma yurdu.
Qələbə müjdəsi verdi xalqına,
Qanlı müharibəyə son nöqtə qoydu!
Siz də rahat yatın əziz şəhidlər,
Sizləri unutmaz bilinki ellər.
Hər zaman siz xalqın ürəyindəsiz,
Sizə minnət duyur qızlar, gəlinlər.
Sizlərə anadır bütün analar,
“Fatihə” göndərib sizi anırlar.
Sizlər yaşayırsız xatirələrdə,
Adınız anılır hər an hörmətlə.
Mən də uzaqdaydım el oğulları,
Gələ bilməmişdim məzarız üstə.
İndi oxuyaraq bir- bir adları,
Sizə oxuyuram' İxlas", "Fatihə".
Vəli, Azər,İlqar,Fərmayil, İdris
Naxçıvan uğrunda şəhid oldunuz!
Çox adlar oxudum, çox üzlər gördüm,
Hər məzar başında hörmətlə durdum.
Çəkə bilməsəmdə adları bir- bir,
Ruhunuz mənimçün doğma, əzizdır!
Adınız yazılıb tarixə sizin,
Fəxarət yerisiz hər birimizin.
Düşmənlə üz- üzə məğrur dayandız,
Şəhid zirvəsinə qalxıb ucaldız!
Şad yatın məzarda, əziz şəhidlər
Şad yatsın məzarda həm Ulu Öndər.
Onun vəsiyyəti bu olub həf vaxt:-
"Milli Ordu dursun həmişə sərvaxt”
Lazım gəldiyi an qalxsın ayağa,
Yurdumda qalmasın bir nəfər "dığa"!
Siz qovun onları itiqovantək,
Qələbə qazanın,olsun mübarək"!
Rəhbər unutmayıb öyüdün onun,
Şükür gətiribdi düşmənin sonun.
Yağı düşmənlərdən Qarabağı alıb,
Orda” Ağıllı şəhər”, gözəl kənd salıb.

Minnətdarıq bizdə hamımız ona,

Minnətdarıq sizə, Milli Orduma.
Qələbə sevinci yaşayırıq biz,
Qləbə çalmışıq rahat yatın siz.
Sizlər candan keçdiz vətən uğrunda,
Sizlərlə öyünür bütün Naxçıvan.
Sizlər şəhid olduz torpaq uğrunda,
Sizlərlə bütövdür can Azərbaycan!
Siz ey şəhidlərim, mərd, igid ərlər,
Sizləri unutmaz gələn nəsillər.
Sizə minnətdardı Qumru ananız,
Sizə rəhət etsin Yaradanımız.
Deyərək əlvida eylədi sizə,
Rahat yatın dedi əziz şəhidlər,
Qismətsə gələcəm ziyarəti(ni)zə
Oxudu "Fatihə", oxudu "İxlas",
Salavat göndərdi hər birinizə.

22-04-2021



## Zəfərə addım-addım

Yenə bizim olubdu,
Qarabağda dağ- dərə.
Minnətdarıq bununçün,
Ordumuza, rəhbərə.
Onların sayəsində,
Çıxdıq aydın səhərə,
Addım- addım gedərək,
Biz çatmışıq zəfərə.

Rəhbər ilə xalqımız,
Birləşib bir olubdu.
"Dəmir yumruq olaraq"
Bir nöqtəyə vurubdu.
Xalqımızla birlikdə,
Dərs verdik düşmənlərə.
Onların sayəsundə,
Çıxdıq aydın səhərə,
Addım- addım gedərək,
Biz çatmışıq zəfərə.

Şəhidlərin öcünü,
Düşmənlərdən almışıq.

44- Günün içində,
Biz qələbə çalmışıq.
Ölməz şəhid olaraq,
Zirvəyə ucalmışıq.
Onların sayəsində,
Çıxdıq aydın səhərə,
Addım- addım gedərək,
Biz çatmışıq zəfərə.

Füzulidən Şuşaya,
Zəfər yolu salmışıq.
Yağıları qovaraq,
Qarabağı almışıq.

Bunun üçün biz yenə,
Borcluyuq şəhidlərə.
Onların sayəsində,
Çıxdıq aydın səhərə,
Addım- addım gedərək,
Biz çatmışıq zəfərə.

Şuşa festivalıyla,
Dünyaya səs salmışıq,
Dayanmışıq vüqarla,
Qoy ölsünlər gavırlar,
Biz Azəri türküyük,
Türk olaraq qalmışıq,
Biz dərs verib, haylara,
Qarabağı almışıq.
Səs yayılıb hər yerə,
Çatmışıq qələbəyə.
Onların sayəsində,
Çıxdıq aydın səhərə,
Addım-addım gedərək,
Biz çatmışıq zəfərə.

Rəhmət deyək öndərə,
Həmdə ki, şəhidlərə.
Can sağlığı diləyək,
Mərd əsgər, qazilərə.
Qoy var olsun Ərdoğan,
Alqış deyək rəhbərə.
Öyünürük hər zaman,
Biz bu iki sərvərlə,
Birlikdə çıxacağıq,
Neçə aydın səhərə.
Onların sayəsində
Çıxdıq aydın səhərə,
Addım- addım gedərək,
Biz çatmışıq zəfərə.

# Anar Süleyman oğlu Bahadurov



***26.06.1992-ci ildə Sabirabad şəhərində anadan olub. Anar Vətən müharibəsində igidlik və mərdlik göstərərək 08.11.2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

***O, Vətən müharibəsində göstərdiyi igidlik və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.***

## Mənim ölməz şəhidim

***Anar Süleyman oğlu Bahadurovun əziz xatirəsinə***

Qarabağım dardaydı,
Səfərbəylik eşitdin.
Bir an da yubanmadan,
Ön cəbhəyə yetişdin.

Əsir düşən torpaqda,
Getdin yağı üstünə.

Silah alıb əlinə,
Qan uddurdun düşmənə.

Cəbrayıl, Zəngilanda,
Vuruşdun yağılarla.
Füzuli, Qubadlıda,
Od vurdun dığalara.

Doğma torpaq uğrunda,
Axıtdın al - qanını,
Lazım gəldi Anarım,
Qurban verdin canını.

Fatmeyi igidi, sən!
Mərd, qorxmaz, ər olmusan.
Sabirabad övladısan,
Nər oğlu, nər olmusan!

Şəhid olub, ucalıb,
Ürəklərə dolmusan.
2904-ün içində,
Biri də, sən olmusan.

Rahat yat, məzarında,
Ey qorxmaz, mərd, igidim.
Vətən səni unutmaz,
Mənim ölməz şəhidim!

01-10-2021



# Ramazan Əbülfət oğlu Göydağlı



***4 fevral 1997; Kırna, Culfa rayonu, Azərbaycan — 28 oktyabr 2020; Füzuli rayonu, Azərbaycan.***

***Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, İkinci Qarabağ müharibəsi şəhidi***

Ramazan Göydağlı 4 fevral 1997-ci ildə Culfa rayonunun Kırna kəndində dünyaya göz açmışdır. "Göydağlı" soyadı ona Ordubad rayonunun Nürgüt kəndindəki Göydağın şərəfinə verilmişdir.

İlk təhsilini 2003-cü ildə Culfa rayon Kırna kənd tam orta məktəbində alan Ramazan 2014-cü ildə həmin məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanmışdır. 2016-cı ildə hərbi xidməti bitirmiş və bir sıra fərqli sahələrdə işləməyə başlamışdı. O, bu müddət ərzində Azərbaycanda, həmçinin Türkiyə və Qazaxıstanda da müxtəlif işlər üzrə təcrübə qazanmışdır.

Neçə illik iş təcrübəsindən sonra 2020-ci ilin 5 sentyabrında Ramazan Göydağlı MAHHXHQ əsgər olmuş, bununla da hərbi fəaliyyətinə yenidən başlamışdır.

Azərbaycan Ordusunun əsgəri olan Ramazan Göydağlı 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsində 15 oktyabrdan iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Ramazan Göydağlı 28 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ramazan Göydağlı ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Ramazan Göydağlı Azərbaycan Prezidenti İlham Əliyevin 05.11.2022-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir.

## Əzib tökəcəyəm yağı düşməni

*Şəhid Ramazan Göydağlının əziz xatirəsinə*

O, Kırna kəndində olub anadan,
Tərbiyyəni alıb ata- anadan.
Böyüyüb o, yeddi yaşa dolmuşdu,
Birinci sinifə qədəm qoymuşdu.
O, çox qorxmaz, qoçaq bir uşaq idi,
Hamıdan zirəkdi, çox qıvraq idi.
Elə seçilirdi tay- tuşlarından,
Böyük görünürdü yoldaşlarından.
O, artıq on səkkiz yaşa yetişdi,
Kırnada tam orta məktəb bitirdi.
Ucaboy, şivərək bir oğlan idi,
Elə bil pələngdi, bir aslan idi.
İki min on beşdə əsgər gedibdi,
Bir il altı ay xidmət edibdi.
Qayıdıb dönəntək əsgərliyindən,
Türküyəyə işə gedibdi, həmən.
İşləyib bir qədər pul düzəltmişdi,
Ata ocağını təmir etmişdi.
Sonra da Bakıda gedibdi işə,
O, igid çalışqan olub həmişə.
Bir toya gəlmişdi o, kəndlərinə,
Sonra dönəcəkdi yenə işinə.
Anası baxaraq boyuna onun,
Qəlbində hazırdı toyuna onun.
Bir gün söylədi ki, gəl evlən bala,
Tay- tuşlarından heç, sən qalma dala.
Görürsən evlənib sinif yoldaşın,
Əkiz oğlu olub qarışıb başı.
Sənin də yatişib evlənmək vaxtın,
Toyda neçə qıza gözaltı baxdım.
Bax, filan qonşunun qızı qəşəngdir,
Həm səliqəlidir,həmdə zirəngdir.
Filan qohumun da, var iki qızı,
Sənə çox uyğundur o qızın yaşı,

Səninlə yaxındır həm də qardaşı.
Ay ana, bir dayan ,çox tezdir hələ,
Astaca dilləndi o gəldi dilə.
Sərhədi pozurlar yağı düşmənlər,
Qorxu içindədir ordakı ellər,
Onların dadına çata bilmirəm.
Millətim dardadır yata bilmirəm.
Dinc dayanmayır ki, o mənfur yağı,
Qorxuda saxlayır oğul, uşağı.
Mən də düşünmüşəm, gedəcəm kursa,
Xidmət eləmək üçün Milli Orduda.
Sənədləri verib kursa yazıldı,
Orduda xidmətə artıq hazırdı.
Beşi sentyabırda kursa düzəldi,
Xüsusi təyinatlıydı, necə gözəldir!
Bir gün axşamüstü o eşitdi ki,
Sərhədi pozublar yağı düşmənlər,
"Tovuz"u tutublar onlar atəşə,
Dinc əhali düşüb orda təşvişə.
Artıq susdurmaqçün yağı düşməni,
Səfərbərlik elan eylədi rəhbər.
27 sentyabırda çağırış etdi:-
" Qarabağa gəlin igidlər-ərlər,
Yığılın bir yerə, olun səfərbər.
Düşmənin birlikdə dərsini verək,
Bir olub onlara yumruq göstərək"!
Çağırış almışdı onun dostları,
Qarabağa getdi kənddən çoxları.
Yaxın dostlarını o yola saldı,
Qayıdıb çox qəmgin o, evə gəldi.
Niyə aparmırlar məni görəsən?!
Onların yadından çıxmışammı mən?
Oturub fikrə getdi divanda,
Atası qapıdan girdi o anda.
Nə olub, ay oğlum, niyə qəmlisən?!
Nəyin çatmır sənin, fikir edirsən?
Başını yelləyib dedi astadan,
Məni çağırmırlar görəsən nədən.
Sən təkcə oğulsan axı,Ramazan?!
Onunçun çağırış gəlməyib mənə?

Mən borclu qalacam demək vətənə?!
Birdən o,hövlənək qalxdı ayağa,
Üzünü tutaraq ata- anaya:-
" Səhər komissarlığa gedəcəyəm mən,
Orda öz sözümü deyəcəyəm, mən.
Məni də göndərsin dostlarım kimi,
Mən də əzib, töküm yağı düşməni.
Vətənim uğrunda döyüşəcəyəm,
Əsir torpağıma qan tökəcəyəm.
Vətənim dardadır, yata bilmərəm,
Getməsəm mən dinclik tapa bilmərəm"!
Səhər açılınca o çıxdı evdən,
Kənd içinə getdi, səhər, sübh tezdən,
Yolda o rastlaşdı yaxın dostuyla,
Dostu da çıxmışdı körpə oğluyla.
Əl verib görüşdü bu yaxın dostlar,
Hal- əhval soruşub, danışdı onlar.
Dostu sual verdi:- hara, Ramazan?
Niyə belə tezdən çıxmısan evdən?!
Nə olubdu sənə, sən birtəhərsən?
O da gülümsəyib, dostundan sordu:-
"Sən hara gedirsən bəs, belə tezdən?
Çağırış almışam, dostu söylədi:
- Oğlumu gəzdirim yolüstü, dedi.
Bəlkə qayıtmadım getdiyim yerdən,
Baş çəkərsən bizə,mənimçün hərdən.
Tapşırıram sənə övladlarımı,
Həm qoca anamı, həm də yarımı.
Yox, dayan! Hələ dur, tələsmə görək?!
Komissarlığa gedib bir çataq görək.
Dostlar gəlib çatdı ikisi birdən,
Komissar soruşdu gəlmisiz nədən?
Şirin təbəssümlə baxıb uşağa,
Ramazan özünü verdi qabağa.
Sizə sözüm vardı, dinləyin məni,
Atasız qoymayaq iki körpəni,
Mən hələ subayam, yox gözləyənim,
Bunu aparmayın, yazın,- mən gedım.
Komissar gülümsədi onun üzünə,
Çağırış göndərrəm mən bu gün sənə.

Var olsun sənin tək oğullarımız,
Sizinlə öyünsün ata- ananız.
Ata - anasıyla gəlib görüşdü,
Könüllü olaraq o yola düşdü.
Vuruşdu Füzuli həm Cəbrayılda,
Döyüşdü Hadrutda, həm Qubadlıda.
Şücaət göstərdi orda nə qədər,
Məəttəl qalırdı onu görənlər.
Elə vuruşurdu igid nər kimi,
Qorxub çəkinmədən igidlər kimi.
İyirmi səkkiz oktyabır payız səhəri,
Naxçıvan aldı bir ağır xəbəri,
Dedilər Kırnaya bir şəhid gəlir,
İgidlər çiynində, bir igid gəlir.
" Qırmızı Bazar" adlı həmin o yerdə,
Həyata göz yumdu, açmadı bir də.
O, şəhid olubdu Şuşa uğrunda,
Vətən əzizləyir onu bağrında.
Naxçıvan açıbdır ona qucağın,
Kırna qucaqlayıb igid, qoçağın.
Alıbdır qoynuna balası kimi,
Onu əzizləyir, anası kimi.
Can ana, sən dik tut başını, hər an,
Xalqın qəlbindədir, ölməyib balan!
O, tək sənin deyil, xalqın oğludur,
Doğma Naxçıvanın sərvər oğludur.
Layiq görülübdür ən uca ada,
Şəhid zirvəsinə ucalıb o da.
Gedib döyüşübdü yüksək amalla,
Təltif olunubdu neçə medalla.
Bizimçün əzizdir şəhidlərimiz,
Döyüşə atılan igidlərimiz.
Belə söyləmişdi ulu öndərim,
" Nə qədər bu millət vardır bu dövlət,
Şəhidlərə hər zaman olacaq hörmət".
Ali komandanım söyləyib bunu,
"Biz sizi unutmayacayıq əziz şəhidlər",
Qələbə çalmişıq zəfər çalmışıq,
Zəfər bizimdir, siz də qalibziz, əziz şəhidlər!
28 oktyabırda o şəhid olub,

Sevgisi xalqının qəlbinə dolub.
Qumruyam yaş ilə dolub gözlərim,
Dilimdə titrəyir əsir sözlərim.
Ürəyimdən gələn bu sözlərimlə,
Sizlərə tanıtdım şəhidlimizi.
Sən məni bağışla şəhid anası,
Sən məni bağışla şəhid atası.
Bəlkə də incitdim, kövrəltdim sizi,
Bağrıma basıram hər ikinizi.
Belə mırd oğulun belə igidin,
Ruhu qarşısında mən baş əyərək,
Dedim cənnətdəki yerin olsun, mübarək!
Yerin nurlu olsun əziz şəhidim!
Vətənin uğrunda canından keçən,
Bütün şəhidlərə min rəhmət dedim,
Məzarın nur olsun, nur içində yat.
Ramazan Göydağlı, əziz şəhidim.

## Haydı, dostlar, Qarabağa

Haydı, igid ərənlərim,
Biz gedirik, Qarabağa.
Orda olan düşmənləri,
Yurdumuzdan çıxarmağa.

Qan tökərək uğurunda,
Qarabağı alacağıq!
Sızıldayan torpaqların,
Yarasını saracağıq.

Düyünlənib "Dəmir yumruq"
Hücum çəkdik yağılara.
Başlarına elə vurduq,
Bir dərs oldu dığalara.

Biz dırmandıq, əliyalın,
Başı duman Xan Şuşaya.
Bizi görən “gönüqalın”,
Durub baxdı çaşa - çaşa.

Hücum edib bircə anda,
Boğazladıq biz onları.
Qoymadıq heç göz açmağa,
Əzib, tökdük siçanları.

Üçrəng şanlı bayrağımız,
Bax, sancıldı Xan Şuşada.
İndi isə, Marş irəli,
Haydı, nərlər, Qarabağa.

Gözəl, əzəl torpaqları,
Ermənidən qaytarmağa.
Biz gedirik Qarabağa,
Orda qurub, yaratmağa,
Haydı, dostlar, Qarabağa!

2021

## Siz qaytardız Murovdağa

Əmr verdi Baş Komandan,
Hazır olun gec olmadan.
Düşmən üstə hücum çəkin,
Yağıları biçib, tökün.
Siz ey igid əsgərlərim,
Azad edin Murovdağı.
Siz Nəbisiz, Koroğlusuz,
Mustafa Çingizoğlusuz,
Qorxmaz, igid- ərənlərim,
Vətənimin mərd oğlusuz!
İbrahim xan, Cavad xansız,
Allahverdi, Poladsınız,
Mübarizsiz, Eldarsınız,
Soz vermisiz ananıza,
Qarabağı alacaqsız.
Gözəl, doğma torpaqlardan,
Ermənini qovacaqsız!
Fəxr edirik sizinlə biz,
Sözünüzdə durdunuz siz.
Siz ey qorxmaz, igid- ərlər,
Əzib tökdüz bədhaqları,
Yağı düşmən tapdağından,
Azad etdiz torpaqları.
Neçə rayon, neçə kəndi,
Suqovuşan adlı bəndi,
Füzulini, Zəngilanı.
Qubadlıdan, Xocavənddən,
Çıxardız Əfi ilanı...
Düşmən gözü baxa- baxa,
Siz qalxdınız xan Şuşaya.
Düşmənləri boğazlayıb,
Vuruşdunuz əlbəyaxa.
Pələng kimi nərə çəkdiz,
Düşmənləri ot tək biçdiz.
Qorxaq, xain düşmənləri
Qoymadınız göz açmağa.
Aslan kimi cəngə girdiz,

Çaşbaş qaldı xain dığa.
Ay ulduzlu bayrağımı,
Siz sancdınız Murovdağa!
Dalğalandı uçrəng bayraq,
Nəfəs aldi şah Murovdağ.
Gözün aydın ey millətim,
Azad oldu can Qarabağ!
Neçə qorxmaz mərd ərlərim,
İgidlərim, ərənlərim.
Qan tökərək Xan Şuşaya,
Candan keeçdiz şəhidlərim.
Şəhidlərin qarşısında,
Baş əyirəm mən də bu gün.
Məğrur dayan əziz ana,
Mərd oğlundan danış, öyün!
Qanlarıyla qələbəni,
Onlar aldı xalqımıza.
Xalq unutmaz şəhidini,
Əzizdilər hamımıza.
Biz borcluyuq zabitərə,
Qazilərə, əsgərlərə,
Qləbəni siyasətlə,
Bizə verən mərd Rəhbərə.
Qalib olan ordumuzla,
Alqış deyək biz liderə.
Bu birliyin sayəsində,
İmza atdıq qələbəyə.
Azad oldu can Qarabağ,
Bütöv oldu Azərbaycan!
Sevinc ilə biz söyləyək,
Lider kimi belə deyək,
Bütün dünyaya əyandır,
Qarabağ Azərbaycandır!
Yaşasın Azərbaycan!

02-12-2020

## Qələbə bayramı

Küçələrə axışıbdı el bu gün,
Qələbə bayramın qeyd eyləyirlər.
Cənab Prezidentlə, Öndərin adın,
Vətənlə birlikdə hey, söyləyirlər.
Yolda, küçələrdə vardı izdiham,
Bu böyük uğuru qeyd eyləyirlər.
"Yaşa can Qarabağ, çox yaşa İlham,
Qarabağ bizimdir" cəm söyləyirlər.
Ulu Öndərimin urəyi, canı,
Xalqına qələbə müjdəsi verdi.
Verdiyi müjdədən sevinir hamı.
Bütün xalqım üçrəng bayrağı geyir.
Həm ulu öndərə, həm şəhidlərə,
Bu sevinc içində min rəhmət deyir.
Gənclərin əlində var iki bayraq.
Birisi üçrəngdir, biri qırmızı,
Türk- Azər birliyindən bu verir soraq.
Bu dostluq artırır qürurumuzu.
Yaşa Azərbaycan, yaşa Türkiyə,
Bu dostluq damarda, qanımızdadır.
Yaxşıca dərs verdik biz, o, tülküyə,
Qardaş Türküyəmiz yanımızdadır!
Bu dostluq bitməzdir, həm də əzəldir.
Bu dostluq tükənməz, həm də gözəldir.
Rəhmət Dəmrələ, rəhmət Öndərə.
Onlar örnək oldu bizim gənclərə.
Belə söyləmişdir Ulu Öndərim:-
Biz ki, bir millətik, iki dövlətik!
Haqq yolumuza çıxan bütün kəslərin,
Bir olub dünyadan kökün kəsərik!
Bu birliyə vardı hər kəsdə inam,
Ata vəsiyyətini yerinə yetirdi İlham.
Yanımızda olub bizim hər zaman,
Böyük qardaşımız, Tayyib Ərdoğan!
Yağı düşmənləri yurddan qovladıq,
Birlikdə düşmənə vermədik aman.
Hər kəs uca səslə söyləyir bunu,

Qələbə bizimdir, zəfər bizimdir!
Yurdumdan  rədd olsun, çıxsın erməni,
Qarabağ bizimdir, torpaq bizimdir!
Hər kəs alqış deyir bu cüt rəhbərə,
Yaşasın Ərdoğan, var olsun İlham,
Allah kömək olsun bu cüt sərvərə,
Var olsun ordumuz! deyir izdiham!

01 -11-2020

# İbrahim Nəcəfqulu oğlu Əliyev

**Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən Müharibəsi şəhidi.**



Əliyev İbrahim Nəcəfqulu oğlu 23 oktyabr 1993-cü ildə Xəzər rayonunun Buzovna qəsəbəsində anadan olub. Buzovna qəsəbəsində yerləşən 125 nömrəli orta məktəbdə təhsilə başlayıb. 9 illik təhsilini bitirdikdən sonra bu məktəbdən ayrılıb.

Uşaqlıqdan kompüterə, elektrik işlərinə həvəsi olan İbrahim bu sahədə də özünü inkişaf etdirib.

2012-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılan İbrahim Ağdamda yerləşən "N" saylı hərbi hissədə, ön xətdə xidmət keçib. Erkən yaşlarında hər iki valideynini itirən İbrahim sentyabrın 29-dan könüllü olaraq İkinci Qarabağ müharibəsinə qoşulub. Silah yoldaşları ilə birgə Füzulinin, Cəbrayılın və Zəngilanın işğaldan azad olunması istiqamətində gedən döyüşlərdə düşmənlə üz-üzə gəlib. İbrahim Əliyev oktyabrın 24-də Zəngilan istiqamətində gedən döyüşlər zamanı şəhadətə ucalıb.

## Sizi sevir Azərbaycan

*Buzovnalı yətim şəhid İbrahim Nəcəfqulu oğlu*
*Əliyevin əzəz xatirəsinə*

Buzovnanın cəsur oğlu,
Sən də, tutdun bu haqq yolu.
Vuruşaraq ön cəbhədə,
Düşmənlərə qənim oldun.

Füzulidə, Cəbrayılda,
Divan tutdun yağılara.
Qarxmaz, cəsur İbrahim sən,
Qan uddurdun dığalara.
Bu gün sənin anım günün,
Şəhid oldun bu günkü gün.
Torpağını suvarmısan,
Al qanınla şəhid, bu gün.

Anan yoxdu yas saxlasın,
Bacın yox ki, o, ağlasın.
Atan da yox, bu dünyada,
Məzarını qucaqlasın.

Can, İbrahim, əziz şəhid,
Ana oldu sənə vətən.
İlham kimi rəhbərin var,
Əməlinə dəyər verən.

Medallarla, diplomlarla,
Təltif oldun, İbrahim sən.
Sən sanma ki, kimsəsizsən,
Bir bax, çoxdu səni sevən.

Öz kəndinin anaları,
Gəlinləri, sonaları,
Oxudular "Quran" sənə,
Eylədilər ehsan sənə.

Siz ey ölməz, şəhidlərim,

Unutmazki, vətən sizi.
Mənim cəsur igidlərim,
Çox sevirik bizlər sizi.

Qumru deyir ruhunuzu,
Qucaqlayıbdı asiman.
Siz ali bir zirvədəsiz,
Sizi sevir Azərbaycan!!!

2021

**
Əziziyəm, Xan Şuşam,
Qarabağım, Xan Şuşam.
Ermənitək yağıya,
Verməyəcək can, Şuşam!
**
Əziziyəm, alıbdı,
Qarabağı alıbdı.
Qoy sevinsin xalqımız,
Ordum zəfər çalıbdı.

# Ağaəmi Elçin oğlu Heybətov



**6 iyun 1993, Bakı – 16 oktyabr 2020, Goranboy rayonu**

**Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, İkinci Qarabağ müharibəsi şəhidi.**

Ağaəmi Heybətov 1993-cü il iyunun 6-da Bakı şəhərində anadan olub. 2000-2011-ci illərdə Buzovna qəsəbəsində yerləşən Əfqan Əliyev adına 125 nömrəli tam orta məktəbdə oxuyub. 2002-2007-ci illərdə isə Buzovna qəsəbəsində 4 saylı Uşaq İncəsənət Məktəbində musiqi (qarmon) təhsili almış, həmçinin Buzovna qəsəbəsinin dini icmasının nəzdində yerləşən İmam Hüseyn məscidində də dini təhsildə almışdır. Futbol azerkeşi olan Ağaəmi futbol oyunu ilə də məşğul olurdu. Ali təhsilini isə 2011-2015-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin "Türk dünyası İşlətmə" fakültəsinin "Turizm və otelçilik" ixtisasında alıb.Bir neçə dil bilirdi. Subay idi.

Ağaəmi Heybətov 2015-2016-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. 2016-cı ildə baş tutan Aprel döyüşlərinə qatılmaq istəsə də buna nail ola bilməyib.

2020-ci ilin 14 iyul tarixində general-mayor Polad Həşimovun şəhid olmasından sonra səfərbərlik başlamış, Ağaəmi Heybətov da səfərbər olunmuşdur. Azərbaycan Ordusunun əsgəri olan Ağaəmi Heybətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərdə savaşıb. Ağaəmi Heybətov oktyabrın 16-da şəhidlik mərtəbəsinə yüksələrək 25 oktyabr 2020 -ci il tarixində Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub. Ağaəmi İkinci Qarabağ müharibəsinə könüllü şəkildə qatılıb və şəhidin ailəsi şəhid olduqdan sonra bu barədə xəbərdar olurlar. Ağaəmi şəhid olmadan öncə cibində olan türk bayrağını döyüş yoldaşına verərək "şəhid olsam bu bayrağı evimə çatdırarsan"-deyir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ağaəmi Heybətov ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" (24iyun 2021), "Cəsur döyüşçü" (24 iyun 2021) medalları ilə təltif edilib.

## Sən də çatdın belə ali məqama

*Buzovnalı şəhid Ağəmi Elçin oğlu*
*Heybətovun əziz xatirəsinə*

Sən hər şeydən əziz bildin vətəni,
Hücum etdin yağıların üstünə.
Dayanmadan qırıb -çatdın yağını,
Vurub sərdin leşi-leşin üstünə.

Sən döyüşdün ön cəbhədə nər kimi,
Poladların düşmənindən öc aldın.
Mübarizin yolun tutdun ər kimi,
Düşmənləri neçə kənddən çıxartdın.

Suqovuşanda siz başlayıb döyüşə,
Dayanmadan irəliyə getdiniz.
Düşmənləri siz salaraq təşvişə,
Yağıları yerlə yeksan etdiniz.

Bayrağını gəzdirirdin hər zaman,
Hara getsən ürəyinin başında.
O, bayrağı indi öpur öz anan,
Əzizləyir ürəyinin başında!

Yerə sərib neçə mənfur dığanı,
İgid kimi şəhid oldun, Ağəmi!
Şəhidlik ən uca, ali zirvədir,
Sən də, çatdın uca ali məqama!

01-11-2021

## Emin Rəşadət oğlu Sadiqov



***21 iyul 1998, Şahbuz, Naxçıvan MR – 26 oktyabr 2020, Füzuli rayonu Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, İkinci Qarabağ müharibəsi şəhidi.***

Emin Sadiqov 1998-ci il iyulun 21-də Şahbuz rayonunun Şahbuz kəndində anadan olmuşdur. İlk təhsilini 2004-cü ildə Cəlil Məmmədquluzadə adına Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbində almışdır. 2008-2010-cu illərdə Naxçıvan şəhər 7 nömrəli məktəbdə təhsil almış, daha sonra yenidən Cəlil Məmmədquluzadə adına Naxçıvan şəhər 2 nömrəli məktəbdə təhsilini davam etdirmişdir. 2012-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyə daxil olmuş və 2015-ci ildə liseydən məzun olaraq Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. 2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirmişdir. Atası Rəşadət Arif oğlu Sadiqov 2009-cu ildə vəfat etmişdir. Anası Gülşad Qəzənfər qızı Rüstəmova hazırda tibb bacısı işləyir.

2019-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirən Emin Sadiqov Qazax rayonuna təyinat almış, burada ilk peşə fəaliyyətinə başlamışdır.

5 oktyabr 2020-ci ildə Füzuliyə yollanmış, döyüşlərdə böyük şücaət göstərmiş, komandiri Şəhid baş leytenant Rauf Əsgərovun yaralandığını görüb ona kömək etmək istərkən 26 oktyabr 2020-ci il şəhidlik zirvəsinə ucalmışdır. 2020-ci il oktyabrın 30-da anadan olduğu Şahbuzkənd qəbiristanlığında dəfn olunmuşdur.

# Unutmaz ki, sizi vətən

*Naxçıvanlı şəhid baş leytenant*
*Emin Sadiqovuv əziz xatirəsinə*

*(O, evin tək övladı idi)*

Mənim xalqım birləşərək rəhbəriylə,
Yumruq kimi düyünlənib bir oldular.
Milli Ordum el gücündən güc alaraq,
Mənfur, xain  düşmənlərdən öc aldılar.

Hər biriniz siz çatanda şəhadətə,
 Qalibiyyət toxumunu siz əkdiniz.
Hey cücərən, hey böyüyən, hey ucalan,
Bu qələbə müjdəsinə qol çəkdiniz.

Dayanmadan boynubükük yağı düşmən,
Tərk etdilər bizim doğma torpaqları.
Düşmənlərin izlərini yurddan sildiz,
Emin balam, siz Azəri oğulları.

Ey şəhidim, igid Emin,  rahat yatın,
Dostlarınız düşmənlərdən qisas aldı!
Bayrağını ucaldaraq hər addımda,
Milli Ordum 44 - gündə zəfər çaldı!

Səs yayıldı...
Zəfər səsi, bütün dünya bunu bildi.
Məğrur xalqım qürurlanır bu zəfərdən,
Qalibiyyət bizim oldu, şəhidlərim,
Bizimləsiz unutmaz ki, sizi vətən!

Ruhunuza baş əyərək yenə də biz,
Söyləyirik rahat yatın,  şəhidlərim!
Medallarla təltif etdi rəhdərimiz,
Unutmazki, yaşadacaq sizi Vətən!..

**

Fələk qarşımda durdu,
Mənə bir tələ qurdu.
Bilmədim bəd niyyətin,
Bu yoldan keçər oldum.

Badə verdi əlimə,
Qıfıl vurdu dilimə.
Süzdü əcəl şərbətin,
Mən vaxtsız içər oldum.

# Vüsal Yəhya oğlu Salamov




**21 sentyabr 1993, Buzovna, Xəzər rayonu, Azərbaycan —**
**18 oktyabr 2020, Suqovuşan, Azərbaycan**

**Azərbaycan Silahlı Qüvvələrinin könüllü əsgəri, İkinci Qarabağ müharibəsi şəhidi.**

Salamov Vüsal Yəhya oğlu 1993-cü ildə Bakı şəhəri Buzovna qəsəbəsində anadan olub. Orta təhsilini Ə.Əliyev adına 125 №li tam orta məktəbdə alıb. Musiqi duyumu yüksək olduğu üçün eyni zamanda 4 №li Uşaq İncəsənət musiqi məktəbində skripka sinfində təhsil alıb. Həqiqi hərbi xidmətini Murovda manqa komandiri kimi başa vurub. 27 sentyabr 2020-ci ildə başlayan İkinci Qarabağ müharibəsinə oktyabrın 5-də könüllü olaraq qatılıb. Füzuli və Suqovuşan döyüşlərində iştirak edib. 18 oktyabr 2020-ci ildə Suqovuşan istiqamətində şəhid olub. Ölümündən sonra sonra "Vətən uğrunda" medalı və "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.

## Mətin dayan gözəl anam

***Buzovnalı şəhid Vüsal Yəhya oğlu Salamovnun əziz xatirəsinə***

Ölüm nədir, qorxum ondan,
Mən ölümdən qorxmuram ki,
Mən ölərsəm ağlar anam,
Onu ağlar qoymaram ki.

Ölməmişəm, əziz anam,
Asimana ucalmışam.
Şəhid olub, çox ananın,
Ürəyində yer almışam.

Sən ağlama, əziz anam,
Qoy ağlasın qaniçənlər.
Dik tut başın, məğrur dayan,
Məğlub oldu, qan tökənlər.

Bax, xalqımız qalib oldu,
Azad oldu torpağımız.
Qalib ordum zəfər çaldı,
Əyilməzdir bayrağımız!

Bu zəfərdə sən əmin ol,
Mənim də var az - çox payım.
Sən ağlama, qalx mətin ol,
Məzarımda rahat yatım.

Unutmaz ki, bizi ellər,
Sən axıtma gözdən sellər.
Şəhidlərə dəyər verir,
Həm xalqımız, həm də rəhbər.

Sən fəxr eylə, gözəl anam,
Qalib ordum Zəfər çaldı.
Ay - ulduzlu bayrağımz,
Xan Şuşada dalğalandı!

21-10-2021

## Qoşa-Dizə igidləri

Siz ürəkli ərənlərim,
Sinəsini gərənlərim.
Qəhrəmansız, qəhrəmansız,
İgid, qorxmaz əsgərlərim.

Generallarım, zabitlərim,
Yaralanan qazilərim.
Düşmənlərdən siz aldınız,
Qanlarını şəhidlərin.

Qoşa - Dizə oğulları
Şulan, Heydər, Məhəmmədim,
Yaqub, Ümid, Vidadi, siz,
İgidsiniz, Qalibsiniz.

Qaşa - Dizə adını siz,
Qeyd etdiniz Xan Şuşaya.
Mənim əziz ellilərim,
Səs saldınız siz dünyaya.

Rəhbərimdən güc aldınız,
Yağılardan öc aldınlz.
44- günün içində siz,
El gözündə ucaldınız.
Minnətdarıq biz rəhbərə,
Minnətdarıq həm sizlərə.
Rəhmət olsun şəhidlərə,
Qumru deyər yad eyləyək,
Rəhmət deyək həm Öndərə!

30-10-2021

# Bayatılar

Əzizim, gördüm səni,
Vüsal  sağ gördüm səni.
Mənə dedin gələcəm,
Tabutda gördüm səni.

***

Əzizim, gedər oldu,
Gəlmədin betər oldu.
Səndən mənə qalan şey
Qəm oldu, kədər oldu.

***

Əzizim, nələr oldu,
Bağçamda güllər soldu.
Şəhid xəbərin gəldi,
Ahu tək mələr oldum.

# Əyyub Rasim oğlu Süleymanov




***9 aprel 2001; İmişli rayonu, Azərbaycan — 1 noyabr 2020; Güləbird, Laçın rayonu, Azərbaycan***

***Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, İkinci Qarabağ müharibəsi şəhidi olmuşdur.***

Əyyub Süleymanov 9 aprel 2001-ci ildə İmişli rayonunda Rasim Süleymanovun ailəsində anadan olmuşdur. Əslən Cəbrayıl rayonunun Qumlaq kəndindəndir. Əyyub ailəsi ilə birgə Biləsuvar rayonuna köçmüş və orada yaşamışdır. 2007-2015-ci illərdə İsgəndər Tahirov adına Biləsuvar rayon Mehdili kənd tam orta məktəbində təhsil almışdır. 2015-2018-ci illərdə Cəbrayıl rayon 131 nömrəli Texniki Peşə Məktəbində elektrik avadanlıqlarının təmiri üzrə elektrik montyoru ixtisası üzrə təhsil almışdır. Subay idi.

Əyyub Süleymanov 2019-cu ilin aprelində Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəbrayıl şəhəri üzrə Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Azərbaycan Silahlı Qüvvələrinin sıralarında, Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət etmişdir.

Azərbaycan Ordusunun əsgəri olan Əyyub Süleymanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün

başlanan İkinci Qarabağ müharibəsində atıcı olaraq iştirak etmişdir. Cəbrayılın, Xocavəndin, Füzulinin, Qubadlının və Laçının azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş və fərqlənmişdir. Əyyub Süleymanov 1 noyabr 2020-ci ildə Laçın rayonunun Güləbird kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı həlak olmuşdur. 4 noyabr 2020-ci ildə Biləsuvar rayonunda yerləşən Şəhidlər məzarlıqlarından birində dəfn edilmişdir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Əyyub Süleymanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Əyyub Süleymanov ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əyyub Süleymanov ölümündən sonra "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Laçın rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Əyyub Süleymanov ölümündən sonra "Laçının azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirən zaman fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 30.12.2020-ci il tarixli Sərəncamına əsasən Əyyub Süleymanov ölümündən sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif edildi.

# Ay ata, ay ana, qalın sağlıqla

*18 yaşlı şəhid Əyyub Süleymanovun əziz xatirəsinə özünün dilindən*

Böyüyüb mən artıq dolmuşam yaşa,
On səkkiz yaşımı vurmuşam başa.
Salamat qal gülüm, sağlıqla yaşa,
Musəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla.

Əsgərlik həyatı səsləyir məni,
Allaha tapşırdım gözəlim səni.
Ay ana, uğurla yola sal məni,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla.

Unutma, sevgilim peymanımızı,
Allaha tapşırdım mən hamınızı.
Yanıltmaram sizin gümanınızı,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla.

Gedirəm orduya mən də, bu gündən,
Yurdu qorumaqçün yağı düşməndən.
Bununçün mən sizi əmin edirəm,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla.

Vətənin uğrunda gələrsə lazım,
Yurduma bir həmlə edərsə zalım.
Verərəm lazımsa qanım, həm canım,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla!

Qovarıq düşməni, gözəl yurdumdan,
Vətən azad olar sən buna, inan!
Qayıdıb dönərəm qalib ordudan,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın qalın sağlıqla.

İgidtək döyüşər, qorxmaz, əsgərlər,
Vətənçün can verər, vətənsevənlər.
Bilinki, heç zaman ölmür şəhidlər,
Müsəlləh əsgərtək düşürəm yola,
Ay ata, ay ana, qalın sağlıqla.

Əgər ki, qayıdıb dönməsəm geri,
Bağışla, sevgilim məni, bağışla.

# Vüsal Əlibəndə oğlu İsmayılzadə



**Vüsal Əlibəndə oğlu İsmayılzadə 2001, Bakı şəhəri, Azərbaycan — 21 oktyabr 2020; Xocavənd rayonu Düdükçü kəndi, Azərbaycan**

**Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, 2-ci Qarabağ müharibəsinin şəhidi.**

Vüsal İsmayılzadə 2001-ci il oktyabr ayının 17-də Bakı şəhəri Buzovna qəsəbəsində anadan olub. 2007-2018-ci illərdə Xəzər rayonunun Buzovna qəsəbəsində yerləşən 322 nömrəli tam orta məktəbdə təhsil alıb. Məzarı " Buzovna Şəhidlər Xiyabanı"nda yerləşir.

2018-ci ildə orta məktəbi bitirdikdən sonra 2019-cu ilin oktyabrın 23-ü Xəzər rayonu Hərbi Komissarlığına çağırılır.

Sentyabr ayının 27-də İkinci Qarabağ müharibəsi başlayanda Vüsal İsmayılzadə əsgər yoldaşları ilə birlikdə əvvəlcə Füzuli, Cəbrayıl və Zəngilan, Xocavənd rayonlarının işğaldan azad olunmasında azad edilməsində böyük şücaət və qəhrəmanlıq göstərir. Onun döyüşlərdə necə mətinliklə vuruşduğu, göstərdiyi rəşadəti haqqında komandiri və əsgər yoldaşları ağız dolusu danışırlar.[1] Oktyabrın 21-də Xocavənd rayonu Düdükçü kəndi istiqamətində gedən döyüşlərə qatılırlar və əsgər yoldaşları ilə raket atəşinə tutulurlar. Əsgər yoldaşları ilə birgə Vüsalda yaralanır. Yaralıları aparmağa maşın gələndə Vüsal əsgər yoldaşlarının maşına mindirilməsində köməklik göstərir.

Ona özünün də minməsini də təklif etsələr də, o onun daha çox yardıma ehtiyacı var deyərək, öz yerinə digər əsgəri mindirir və növbəti kömək üçün maşının gəlməsini, yaralı dostlarını tək qoymamağı seçir. Yaralı halda çoxlu qan itirdiyindən Vüsal növbəti maşınla hərbi hospitala çatdırılanadək Şəhidlik zirvəsinə ucalır. 23 oktyabr 2020-ci ildə doğulduğu Buzovna qəsəbəsində yerləşən " Buzovna Şəhidlər Xiyabanında" dəfn olunub. Azərbaycan nın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 15 dekabr 2020-ci il tarixli sərənacamına əsasən "Vətən uğrunda" medalı , "Füzulinin azad olunmasına görə" medalı, "Cəbrayılın azad olunmasına görə" medalı, "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

## Bizim Vüsal

***Buzovnalı şəhid Vüsal İsmayılzadənin əziz xatirəsinə***

Səni anan yola saldı,
Sevinərək əziz Vüsal,
Dedi: - Balam, əsgər oldun,
Get, üzünə gülsün iqbal.

Əzizləyib qohum, qonşu,
Sü atdılar arxasınca,
Ana durub, donub baxdı,
Vüsal gedən yol boyunca.

İyirmi yeddi sentyabrda,
O, döyüşdü Füzulidə.
Zəngilanda, Cəbrayılda
O, seçildi döyüşlərdə.
İyirmi bir oktyabrda,
Yollandılar Xocavəndə,
Minamyota tuş oldular,
Dostlarıyla o, bir yerdə.

Yaralandı bizim Vüsal,
Zabit dedi geriyə dön,
Qospitala tez çat, Vüsal,
Yaran çoxdu, axıtma qan.

Dostlarım da yaralıdı,
Onları tək qoyammaram.
Torpağımçün, dostlarımçün,
Lazım gəlsə şəhid ollam.

Son bıir damla qanımı da,
Tökəcəyəm bu torpağa.
Şəhid olub,versəm də can,
Bütöv olsun, Azərbaycan!

Deməyin ki, Vüsal öldü,

O, yaşayır ürəklərdə.
O, dönməyən amalıyla,
İgid kimi şəhid oldu,
Qonaq oldu mələklərə!!!

## Səndə öz payın var



***44 günlük müharıbədə bir gözünü itirmiş Naxçıvan qazisi Vidadi Əkbər oğlu Məmmədova həsr edirəm***

Artıq əsgər paltarın,
Sən də, geydin əyninə.
Qarabağa yollandın,
Silah aldın çiyninə.

Qırıb çatdın yağını,
Qoymadın göz açmağa.
Sən mənfur dığaları,
Məcbur etdin qaçmağa.

Füzulidən başlayıb,
Çatdın Murov dağına,
Qan axıdıb torpağa,
Yara aldın başından.

Sən həm qalib əsgər,
Həm də, qazi olmusan.
Ordumuzla bərabər,
Sən də zəfər çalmısan.

Qoşa - Dizədə böyüyüdün,
Məmmədov Vidadi sən!
Vətən sənə anadır,
Naxçıvan övladısan!

Bu zəfər bayramında,
Sənin də, öz payın var.
Qumruyam, diləyirəm,
Tanrım sənə olsun yar!

2021

# Qalib əsgər

***İkinci Qarabağ Vətən müharibəsinin iştirakçısı,***
***Naxçıvanlı XTQ əsgəri Yaqub Əli oğlu Bayramova ithaf edirəm***

Xüsusi təyinatlı,
Mərd - igid Yaqub, sən də,
Xalqına arxa durdun,
Çətin gündə, dar gündə.
Naxçıvan igidi, sən,
Yollandın Qarabağa,
Ermənini qovaraq,
Yurdundan çıxarmağa.
Qarşına məqsəd qoydun,
Vuruşacam igid tək,
Düşməni yurddan qovub,
Qayıdacam qalib tək!
Qarabağ torpağına,
Axıtsam da mən, al-qan.
Erməni dığasına,
Çətin verərəm mən, can!
Alsan da neçə yara,
Şükür sağ qayıtmısan,
Dərs verib dığalara,
Qalib əsgər olmusan!
Soruşsanız bu kimdir,
Soyləyərəm mən sizə,
İgid kimi vuruşub,
Şərəf gətirib bizə.
Qoşadizə övladıdır,
Yaqubdur onun adı.
O, qalib cəsur- igid,
Neçə medal da aldı.
Biz də təbrik edirik,
Belə mərd, igidləri,
Bir deyil, bir neçədi,
Qoşadizə igidləri.
Onlara can sağlığı,
Xoş diləklər diləyək,

Ordum zəfər çalıbdır,
Biz birlikdə sevinək.
Şəhidləri heç zaman,
Unutmayaq biz gərək,
Şəhidlərin ruhuna,
Bir "Fatihə" göndərək.

# İtkin igid

***İtkin əsgərin anasının dilindən***

Körpə balaların yollara baxır,
Ağlar gözlərindən qanlı- yaş axır.
Sevdiyin uzanan yollara baxır,
Gözləyirəm səni, dönmürsən hələ,
Sağmısan, ölmüsən? bilmirəm hələ.

Bu nə tale imiş,bu necə qədər?!
Tərk etməyir məni qüssə,qəm, kədər
Elə hey sorurlar səni sevənlər,
Gözləyirlər səni,dönmürsən hələ?
Hardasan ? Bir xəbər vermirsən niyə?!

Qayıdıb gəlibdir neçə ər- qazi,
Şəhidlər gəlibdir, yandırıb bizi.
Şəhidtək dön geri olaram razı,
Sözləyirəm səni gəlmirsən hələ,
Ölmüsən, qalmısan bilmirəm hələ.

Necə yaşayırsan,  ölmüsən necə,
Bir xəbər sal mənə,sağsan, gizlicə,
Gündüzüm dönübdür,olubdur gecə,
Gözləyirəm səni gəlmirsən hələ,
Bilmirəm olmüsən, qalmısan hələ.

Çağırıram səni, cavab versənə,
Ya diri, ya ölü dönüb gəlsənə.
Sənsiz dözəmmirəm bunu bilsənə,
Getdiyin yollardan dönmürsən niyə,
Mən nələr çəkirəm bilmirsən, Niyə?!

## Şəhid gül

Qərənfilim ürkərək
Tezdən qalxıb oyandı.
Gözündən yaş süzərək
Tez Bakıya yollandı.
Şahid oldu vəhşətə
Boynubükük dayandı.
Qondu şəhidlər üstə
Qızıl qana boyandı.
İyirmisi yanvardan
"Şəhid gül" adı aldı
Bu, gül, şəhidlər kimi,
Əbədiyyət qazandı!?

17-01-2014

# Buzovnanın igidləri




Vətən darda olan zaman,
Cəsur, igid, oğlanlardan.
Qalmadılar heç də geri,
Yollandılar ön cəbhəyə,
Buzovnanın igidləri.

Qubadlıda, Zəngilanda,
Suqovuşan, Xosavənddə,.
"Qırmızı bazar"adlı yerdə,
Göstərdilər şücaəti,
Buzovnanın igidləri.

Yol aldılar Kəlbəcərə,
Təmizləndi çox dağ - dərə.
Düşmən izi dəyən yerdə,
Üçrəng bayrağı sancdılar,
Buzovnanın igidləri.

Qova - qova düşmənləri,
Azad edib çox kəndləri.
Vətəninin uğurunda,
Candan keçdi neçələri,
Buzovnanın şəhidləri.

Şəhidlərə rəhmət deyək,
Qazilərə can sağlığı.
Bar olun siz, igid- ərlər,
Cəsursunuz,qarxmazsınız,
Buzovnanın igidləri!

## Bayatılar

***

Əzizim Naxçıvanım,
Böyüyüb çox cavanım.
Həm belə igidlərə,
Həm sənə qurban canım.

***

Əzizim yatım necə,
Gecələr yatım necə?
Yarım gedib cəbhəyə,
Onsuz mən necə yatım.

# Şöhrət oldunuz



***İkinci Qarabağ Vətən müharibəsi iştirkçısı***
***Ramal İsmayıl oğlu Hüseynov***

Silahlanıb siz qalxdınız ayağa,
İgid Ramal, hücum çəkdiz yağıya.
Al qanına boyayaraq düşməni,
Dərs verdiniz mənfur, alçaq yağaya.

Qovladınız, siz onları durmadan,
Yağdırdınız puaları üstünə.
Bir it kimi girmişdilər yurduma,
Rədd oldular hey sürünə- sürsnə.

Qorxmaz igid, dostlarınla birlikdə,
Qoymadınız onları göz açmağa,
Ovunu qıy vuran şahin oldunuz,
Məcbur etdiz silah atıb qaçmağa.

Yaşasın rəhbərim,var olsun ordum,
Birləşib xalq ilə vəhdət oldunuz,
Qırx dörd gündə qazanıb qələbəni,
Büsbütün dünyaya şöhrət oldunuz!

Yaşatdınız bu sevinci bizlərə,
Gülüş qondu yanaqlara, üzlərə.
Biz borcluyuq şəhid analarına,
Yol gözləyən gəlinlərə, qızlara.

Uğur deyək biz Milli Ordumuza,
Qazilərə can sağlığı diləyək,
Gözün aydın deyək, öz xalqımıza,
Ramal kimi igidlərlə fəxr edək!

# Ümid Novruzlu



*7 iyun 1992, Babək, Naxçıvan Muxtar Respublikası –*

*5 noyabr 2020, Şuşa rayonu*

*Azərbaycan Silahlı Qüvvələrinin giziri, İkinci Qarabağ müharibəsi şəhidi.*

Ümid Novruzlu 1992-ci il iyunun 7- də Babək şəhərində anadan olub. Ailəli idi. 2 övladı yadigar qaldı.

Ümid Novruzlu 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2012-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Azərbaycan Ordusunun giziri olan Ümid Novruzlu 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Xocavəndin və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ümid Novruzlu noyabrın 5-də Şuşanın azad edilməsi zamanı şəhid olub. Babək şəhərində dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Ümid Novruzlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Ümid Novruzlu ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Ümid Novruzlu ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif edildi.

# Şükür Bayram oğlu Hacıyev



O, 25 avqust 1999-ci ildə Naxçıvan Muxtar Respublikasının Babək şəhərində anadan olub. 2005-ci ildə Babək şəhər tam orta məktəbin 1-ci sinifinə daxil olub, 8-ci sinfi bitirdikdən sonra 2013-2016- ci illərdə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi liseydə təhsil alıb. 2016-ci ildə hərbi liseyi bitirərək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2020-cu ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib.
2020-cü ildə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin qərarı ilə hərbi hissədə leytenant vəzifəsinə təyin edilib. Azərbaycan Ordusunun leytenantı olan Şükür Hacıyev 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan (Tərtər) istiqamətində gedən döyüşlərdə iştirak edib.

12 oktyabr 2020-ci ildə Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub. Babək şəhər məzarlığında dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən, Şükür Hacıyev ölümündən sonra "Vətən uğrunda" , Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərdiyinə, habelə təşəbbüskar və qətiyyətli hərəkətlər nümayiş etdirməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən, “ Döyüşdə fərqlənməyə görə” medalı, Azərbaycan Respublikasının Suqovuşan kəndinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək igidlik və mərdlik nümunəsi

göstərdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



# Vətən sizə oğul dedi

***İkinci Qarabağ Vətən müharibəsi şəhidləri Şükür Bayram oğlu Hacıyev və şəhid Umid Bahadır oğlu Novruzlu Füzulidən Şuşaya qədər bütün döyüşlərdə şücayət göstərən qəhrəmanlarımız. Hər ikisi Babək şəhərindəndir.***

***Müqəddəs şəhidlərimizin əziz xatirəsinə***

Vətən sizə oğul dedi,
Siz vətəni ana bildiz.
Doğma, gözəl yurdumuzdan,
Yağıları qovdunuz siz.

Azad etdiz yurd- yuvanı,
Öyündürdüz çox ananı.
Qələbəni qazandınız,
Sevindirdiz el- obanı.

Babəkimin igidləri,
Biri Şükür, biri Ümid.
Torpaqları uğurunda,
Hər ikisi olub şəhid.

İkisinin adına da,
Bu şeiri həsr adirəm.
Anaları qarşısında,
Ehtiramla baş əyirəm.
Rəhmət deyək bizlər yenə,
Əziz, ölməz şəhidlərə.
Biz borcluyuq hər bir zaman,
Bizim ölməz şəhidlərə.

Mən də, Qumru Babək qızı,
Çox sevirəm öz yurdumu,
Allahımdan diləyirəm,
O, qorusun balalardan,
Rəhbərimi, həm ordumu.

14-10- 2021

# Rasim İsmayıl oğlu Ramazanov



***26 iyul 1998; NMR Babək rayonu, Azərbaycan - 19 oktyabr 2020; Xocavənd rayonu, Azərbaycan***

***Azərbaycan Silahlı Qüvvələrinin əsgəri, Vətən Müharibəsi şəhidi.***

Rasim Ramazanov 1998-ci il iyulun 26-da Babək rayonunun Babək qəsəbəsi anadan olub.

Rasim Ramazanov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli və Xocavənd rayonunun azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir. Rasim Ramazanov oktyabr 19-da Hadrutun azad edilməsi zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə

yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Rasim Ramazanov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29.12.2020-ci il tarixli Sərəncamına əsasən Rasim Ramazanov ölümündən sonra "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edildi.

## Qazandın bu zirvəni

***Naxçıvan şəhidi XTQ-də maxe olan Babək şəhərində anadan olmuş Xocavəndin Tuğ kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Rasim ismayıl oğlu Ramazanovun əziz xatirəsinə***

Vətən darda olanda,
Gözü yolda qalanda
Düşmənlər vətənimə,
Bombalar yağdıranda.
Rəhbərin çağırışına,
Cavab verdin ər kimi,
Başqa igidlər kimi,
Sən də qalxdın nər kimi.
İçdin əsgəri andı,
Qorxmaz, mərd əsgər kimi.
Naxçıvanın mərd oğlu,
Sən də, tutdun haqq yolu.
Qarabağa yol aldın,
Ön cəbhəyə yollandın!
Qurtarmaqçün vətəni,
Qırıb tokdün düşməni.
Anan böyütmüş səni,
Sevdirərək vətəni.
Sən də vətən uğrunda,
Qazandın bu zirvəni.
İgidtək şəhid oldun,
Xalqın qəlbinə doldun.
Əziz bir şəhid kimi,
Dondün öz ocağına.
Naxçıvan aldı səni,
Öz doğma qucağına.
O, Babəkin övladı,
Rasimdi onun adı.
Babək qəsəbəsindən,
MAXE kimi getmişdi,
Düşmənə od vuraraq,
Arzusuna yetmişdi.

Füzulidən başlayıb,
Qırdı, çatdı yağını,
Doğma torpağımızdan,
Qovaladı " dığanı"
MAXE dostları kimi,
Çox hünər göstərərək,
Xocavənddə vuruşdu,
Getdi Tuğ kəndinətək,
O, qorxub çəkinmədən,
Vuruşardı həmişə.
Düşmənləri qorxudub,
Çox salardı təşfişə.

Çaşdıraraq düşməni,
Yenə də dik durmuşdu,
Elə həmin anda da,
Düşmən onu vurmuşdu.
Bu igid, qəhrəman nər,
Orda şəhid olmuşdu.
Doğma torpaq uğrunda,
Canından keçən igid,
İsmayılın oğluydu,
Oğlu oldu bu elin,
Atası, sən qürur duy.
Mərd, qorxmaz övladınla,
Anası, mərd oğlunla,
Sən də qürür duy, öyün!
Adı gəzir ellərdə,
O, yaşayır qəlblərdə!
Biz də qürur duyuruq,
Bu ölməz şəhidlərlə!
Rasim, ruhun önündə,
Hörmətlə baş əyərək,
Söyləyirəm mən sənə,
Cənnətdəki ilk yaşın,
Olsun sənin, mübarək!
Sən ey igid, qorxmaz ər,
Rahat yat, məzarında,
Ordumuz çaldı zəfər!
Sən tək qorxmaz,dostların,

Xan Şuşanı aldılar.
Artıq "Cıdır düzü"ndə,
Zəfər marşı çaldılar!
Onu bil şəhid bala,
Sən də zəfər çalmısan.
Ölümündən sonra sən,
Neçə medal almısan!
Rəhbərin söyləyibdi:-
"İgidlərim, ərlərim,
Ey, igid əsgərlərim.
Dəmir yumruq olmuşuq,
Bir nöqtəyə vurmuşuq.
Ey, olməz şəhidlərim,
Mənim  aslan, nərlərim,
Alçaq yağı düşməndən,
Qanınızı almışıq.
Düşmənləri qovaraq,
Qarabağı almışıq!
Sizlərin sayənizdə,
Qələbəni çalmışıq!"
Qələbə müjdəsinə,
Xalqımız çox sevinir.

Müzəffər ordusuyla,
Yenilməz Rəhbəriylə,
Qazisi, şəhidiylə,
Qumru da, çox öyünür!
Sözləri düzə - düzə,
Gözdən yaş süzə- süzə,
Ürəyindən keçəni,
Qumru da deyir sizə:-
Öndər ilə birlikdə,
Rahat yatın şəhidlər.
Sizləri heç bir zaman,
Unutmayacaq ellər!
"Fatihə"ni oxuyub-
Göndərirəm mən sizə.
Qarabağı alaraq,
Sevinc yaşatdız bizə.
Ruhlarınız şad olsun,

Yeriniz gülşad olsun.
Ata- ananız sizin,
Sizlərlə qürur duysun!
Yaşasın Milli Lider,
Azərbaycan var olsun!

50-08-2021

# Can Qarabağ

Can Qarabağ doğma diyar,
Səni əzdi yağı, əğyar.
Torpağını azad edən,
Uğurunda candan keçən,
Neçə- neçə igid, ər var!
Axıdaraq qanlarını,
Qurban verib canlarını,
Yağı düşmən tapdağından,
Qurtarıblar torpağını!
Qaytarıblar yurdum sənə,
Baltək axan bulağını.
Xan Şuşaya cancdı ərlər,
Ay - ulduzlu bayrağını.
Zəfət çaldı Milli Ordum,
Dünya aldı sorağını.
Minnət duyaq şəhidlərə,
Amalı bir, vahidlərə.
Ordu ilə bir söz olan,
Alqış deyək biz Rəhbərə!
Yaşa lider, yaşa ordum,
Azad oldu doğma yurdum.
İgid qorxmaz əsgərinlə,
Düşmənlərə zərbə vurdun.
Müharibəyə nöqtə qoydun.
Dalğalanan üçrəng bayraq,
Azadlıqdan verir soraq.
Viran olmuş kənd, şəhərdə,
Yeni gözəl şəhər salaq,
Qoy canlansın can Qarabağ,
Qumru, biz də çox şad olaq!

21-11-2020

# Bayatılar

***

Hər kəsdə ilham olmaz,
Su töksən quyu dolmaz.
Bir- birinə uymayan,
Söz düzsən şeir olmaz.

***

Söz gələrsə ürəkdən,
Yazaram ürək deyən.
Sevgili, ana, Vətən,
Qumru deyər yorulmaz.



# Tamerlan İqrar oğlu Əliyev




***Tamerlan İqrar oğlu Əliyev 2002-ci il yanvarın 3-də Quba şəhərində anadan olub. Subay idi.***

Azərbaycan Ordusunun əsgəri olan Tamerlan Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşub. Tamerlan Əliyev oktyabrın 1-də Füzuli döyüşləri zamanı şəhid olub. Quba şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Tamerlan Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Tamerlan Əliyev ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

## Vətənə layiq övlad

*İkinci Qarabağ Vətən müharibəsi zamanı Suqovuşanda*
*və Füzulidə qəhrəmanlıqla döyüşərək Füzulidə şəhid olmuş*
*və Quba rayonunun Şəhidlər Xiyabanında dəfn olunmuş*
*18 yaşlı şəhid Əliyev Tamerlan İlqar oğlunun əziz xatirəsinə*

Dünyaya göz açdı bir igid bu gün,
Ailə sevindi etdi toy- düyün.
Atası bir qurban kəsdidə ona,
Tamerlan adını verdi oğluna.

Yığıldı qohumlar dayı, əmilər,
Ataya - anaya təbrik dedilər.
Sağlıq söylədilər körpə uşağa,
Sevinc gülüşləri doldu otağa.
Bibisi söylədi o, olsun həkim,
Bəziləri dedi mühəndis, hakim.
Anası söylədi canı sağ olsun,
Vətəninə layiq bir övlad olsun.
Böyüdü igidtək bizim Tamerlan,
Oldu baz-burudlu, igid bir cavan.
On səkkiz yaşını tamam eylədi,
Ona çağırış gəldi Milli Ordudan.
O da hazırlaşıb, tez yola düşdü,
Bir neçə aydı ki, əsgər getmişdi.
Mənfur düşmən yenə sərhəddi pozdu.
Onun qismətinə Suqovuşan düşdü,
O da düşmənlərlə şir tək vuruşdu!
Hücuma keçmişdi o Füzulidə,
Oktyabırın birində qanlı döyüşdə,
Yağı - düşmənlərin atdığı güllə,
Tamerlan balanı şəhid eylədi.
"Vətənim sağ olsun"- gülümsəyərək,
O, son nəfəsində belə söylədi.
Görüm düşmənlərin bağrı qan olsun,
Anası, ağlama, üzün ağ olsun.
Belə cəsur igid böyütmüsən sən,
Şəhidlər ölməzdir, "vətən sağ olsun".
Tamerlantək igid böyüdən ana,

Məğrur dur, əyilmə, kövrəlmə ana,
Fəxr eylə həmişə, dik tut başını,
İgid əsgər verdin Azərbaycana!
Səntək anaların qarşısında mən,
Hörmətlə baş əyib, səcdə edirəm.
Mən də Qumru Qüdrət gözlərimdə yaş,
Allahdan onlara rəhmət dilərəm.
Sizlər əmin olun, əziz analar,
Şəhidlər ölməzdir, yaşayacaqlar!
Əli qələm tutan yazarlarımız,
Onların haqqında çox yazacaqlar.
Onları dünyaya tanıdacaqlar.
Vətənçün canından keçən şəhidlər,
Xalqımız durduqca var olacaqlar.
Şəhidlər ölməz, Vətən bölünməz.
Yaşasın Azərbaycan!

15 -09-2021

# Əvəz Vəli oğlu Zeynallı



***44 günlük vətən müharibəsinin iştirakçısı..***
***Üç medal və diplomlarla təltif edilmişdir.***

## Bizim Əvəz

***(Poema)***

İgid bir oğlandı bizim bu Əvəz,
Bir an da yoruldum, usandım deməz!
Balaca oğlandı ərköyün, şıltaq,
Babanın adını daşıyan uşaq.
Atanın atası, ata əvəzi,
Evdə hamı sevir, bizim Əvəzi.
Nə qədər ərköyün olsa da uşaq,

Ata- ana sözünə asardı qulaq.
Evdə anasına kömək edərdi,
Nə işə göndərsə, həmən gedərdi.
Əvəz atasını lap çox sevirdi,
O, da nə istəsə həmən edirdi.
Böyüdü, 11 illik məktəb bitirdi,
Baxdı ki, əsgərlik vaxtı yetirdi.
Naxçıvan şəhərinə o, əsgər getdi.
Bir il altı ay o, xidmət etdi.
Topçutək yetişdi o əsgərlikdə.
Özünü sınadı həm snayperdə.
İgidtək edirdi əsgərliyini,
Komandir görürdü zirəkliyini.
On gün məzuniyyətlə təltif eylədi
Ata- anasınasa "Sağ ol" söylədi.
Əsgəri xidməti bitirib gəldi,
Qayıdıb gəlmişdi artıq, üç ildi.
Hələ də torpaqlar düşmənlərdəydi,
Torpaqlarımız hələ yad əllərdəydi.
Qoymurdu ki, yata onu qeyrəti.
Yurdsuz, yuvasızdı axı milləti.
Anadan olmuşdu o, Sumqayıtda,
Nə qədər köçkünlər var Sumqayıtda.
Görürdü onların yaşayışını,
Qaçqıntək yaşayan soydaşlarını.
O, da narahatdı çoxları kimi,
Rahat yata bilmir gecələrini.
Səhər tezdən durub işə gedirdi,
Gecələr yatmayıb, fikir edirdi.
Bir gün səhər tezdən o, radioda,
Eşıtdi düşmənlər sərhədi pozub,
Neçə yaralı var bizim tərəfdən.
Atəşə tutulub bu axşam Tovuz.
Çağırış eyləyib Ali Komandan,
Yığılın təcili siz yubanmadan.
21 sentyabrçün çağırış almış,
Cəmi bircə gecə o, evdə qalmış.
Xeyir- dua edıb ata- anası,
Uğurlayıb onu tez yola salır.
Yollanıb Əvəz də lap ön cəbhəyə,
Qan uddurmaq üçün o, düşmənlərə.

Döyüşə başlayıb o, Füzulidə,
O qədər düşməni salıbdı yerə.
O, həm minamiyotcu, həm topçu idi.
Şikarını güdən bir ovçu idi.
Uzaqdan düşməni nişan alırdı,
Düşmənin leşini yerə salırdı.
Sumqayıt şəhərindən o yola düşdü,
Torpağı uğrunda çox döyüşmüşdü.
Döyüşə yollandı iyirmi bir sentyabrda,
Döyüşdü Xocavənd, həm Cəbrayılda.
Uzun yol gəlibdi qorxub, bezmədən.
Düşməni çıxarıb bir neçə kənddən.
Əmr olunubdu həmin alaya,
Əsgər dostlarıyla çatın Şuşaya.
" Qırmızı Bazar" adlı həmin o yerdə,
Qorxmaz bir əsgərtək vuruşub o da.
O, yerdə başına çox işlər gəlib,
Yenə məğrur durub, sinəsin gərib.
Neçə əsgər dostu şəhid olubdu,
Əvəz də əzilib halsız qalıbdı.
Şücaət göstərib taqım komandiri,
İgidlik göstərib onlar hər biri.
Yanında can verib yaxın dostları,
O, tək buraxmayıb ruhsuz canları.
Neçə yaralını çiyninə alıb,
Gətirib çox əmin bir yerə salıb.
Qayıdıb yenə də ər meydanına,
Düşməni boyayıb murdar qanına.
Vuruşub öc alıb o, yağılardan,
Torpağı qaytarıb pis dığalardan.
Şuşanı qaytarıb, zəfər çalıblar,
Ölməz şəhidlərin öcün alıblar.
Əsirlə dəyişiblər neçə şəhidi,
Neçə leş verərək alıblar diri.
Əsir dəyişməkdə əməyi olub,
Şəhid çıxarmaqda köməyi olub.
Layiq görülübdü neçə medala,
Aldığı medala layiqdir o da.
Gedibdi orduya 21 sentyabrda,
Ordudan qayıdıb 9- u yanvarda.

Dövlətimiz ona çox dəyər verib,
Fəxri fərman ilə təltif edilib.
Anası fəxr etsin öz övladıyla,
Biz də öyünürük onun adıyla.
Şükür qayıdıbdı o sağ- salamat,
Qumruda diləyir ona xoş həyat.
Bibim nəvəzidir bu igid axı,
Çiynində gəzdirib üçrəng bayrağı.
Qayıdıb gələndə qalib əsgər tək,
Şəhidləri ziyarət edibir tək-tək.
Ali komandanın siyasətiylə,
İgid əsgərlərin fərasətiylə,
Birlikdə qazandıq qələbəmizi,
Artıq yenə bilməz bir kimsə bizi.
Şuşaya sancmışıq barağımızı,
Azad eləmişik Qarabağımızı.
Gəlin əziz dostlar birgə sevinək,
Avqustun üçündə ad günü olub,
Əvəzi birlikdə biz təbrik edək.
Ölməz şəhidlərə, Ulu Öndərə,
Hamımız birlikdə rəhmət diləyək.
Yaşasın Azərbaycan, var olsun Lider,
Qarabağ bizimdir, bizimdir deyək.
İgid qazilərə biz can sağlığı,
Qalib ordumuza alqış söyləyək.

05- 08- 2021

Əzizim şiş dağları,
Laçının şiş dağları.
İgidlərim alıbdı,
Düşməndən şiş dağları.
***
Əzizinəm orduma,
Arxa duraq orduma.
Allahım kömək olsun,
Prezidentimə, orduma.
**
Əziziyəm, o daşdan,
O qayadın, o daşdan.
Yarım gedib cəbhəyə,
Qalib dönüb savaşdan.

# Alı Nofəl oğlu Həsənli



***22 iyun 1995, Bakı — 21 oktyabr 2020, Cəbrayıl rayonu)***

***Azərbaycan Silahlı Qüvvələrinin əsgəri. İkinci Qarabağ müharibəsində Cəbrayıl uğrunda gedən döyüşlərdə həlak olmuşdur.***

Alı Nofəl oğlu Həsənli 22 iyun 1995-ci ildə Bakı şəhərində anadan olub.[2] 1 sentyabr 2001-ci ildə Bakı şəhəri, Nizami rayonu, Şəhid Milli Qəhrəman Ərəstun Mahmudov adına 220 saylı məktəb-liseyin 1-ci sinifinə qəbul olub. 2012-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2012-ci ildə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin “Geofizika Mühəndisliyi” fakültəsinə qəbul olub. 2016-cı ildə həmin ixtisası bitirib.

Həsənli Alı 2016-cı ilin 20 iyul tarixində Azərbaycan Respublikası Silahlı Qüvvələri sıralarına həqiqi hərbi xidmətə yollanmış, Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə Radiotelefonçu ixtisası üzrə hərbi xidmət keçmişdir. 2017-ci il iyul ayının 4-də hərbi xidməti başa vurub. Universitet illərindən və həqiqi hərbi xidməti başa vurduqdan sonra bir sıra müəssisələrdə müxtəlif vəzifələrdə fəaliyyət göstərmişdir. 2018-ci ilin dekabr ayından etibarən SOCAR Təhlükəsizlik idarəsində təhlükəsizlik əməkdaşı kimi çalışıb.

2020-ci ilin 21 Sentyabr tarixində SHXÇDX-nin Bakı şəhəri Nizami rayonu şöbəsi tərəfindən Azərbaycan Silahlı Qüvvələri sıralarına yenidən çağırılmışdır. 2020-ci il sentyabrın 27-də Azərbaycan və Ermənistan arasında başlanan İkinci Qarabağ müharibəsi zamanı Füzuli uğrunda gedən döyüşlərdə və Cəbrayıl istiqamətində gedən döyüşlərdə rayonlarının azadlığı uğrunda mübarizədə xüsusi rəşadət göstərmişdir. 20 Oktyabr 2020-ci il tarixində Vətən Müharibəsində Cəbrayıl istiqamətində gedən döyüşlərdə həlak olmuşdur. Həsənli Alı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

## Rasim Elman oğlu Əsədov



*Rasim Elman oğlu Əsədov 1975-ci ildə dünyaya göz açıb,*
*2010-cu ildə dünyasını dəyişib.*

## Rasimə bənzərsən

*Əslən Borçalıdan olan Bakıda doğulub, boya-başa çatmış*
*44 günlük Vətən müharibəsi şəhidi Alı Həsənlinin*
*və 2010-cu ildə faciəvi şəkildə yol qəzasında*
*dünyasını dəyişmiş qaynım oğlu Rasim Əsədovun*
*əziz xatirəsinə*

O, gözəl duruşun, qəddi - qamətin,
İncə təbəssümün, namus, qeyrətin,
Gülər baxışların, qələm - qüdrətin,
Yanaqda zənəxdan, başda tellərin,
Bənzədirlər səni bilirsən kimə?

İgid, bənzəyirsən bizim Rasimə!
Alı, bilirsənmi kimdir bu Rasim?!
Əkiz qardaşındır eləbil sənin.
O, yetmiş beşinci ildə anadan olub,
O da, sənin kimi bir cavan olub.
Birinci Qarabağ müharibəsində,
O da, Naxçıvanda bir aslan olub.
Atəşkəs edəndə Ulu Öndərim,
Əsgərlikdə idi çoxu gəncləri.
O, əsgərlik edib dörd il, altı ay.
O, da evlənməyib, o da bir subay.
Onun da qalmayıb bir nişanəsi,
Qalmayıb dünyada ciyərparəsi.
Ölümüylə yandırıb, yaxıbdı bizi,
Yoxluğu hələ də yandırır bizi.
Bax belə duruşun, belə gülüşün,
Məni məndən alıb, apardı, bala,
Mənimdə Rasimim qədd - qamətliydi,
Uca boyunuza mən qurban, bala.
Dünya yaşlarınız bir az fərqlidir,
O, otuz beşdə köçdü, sən iyirmi beşdə,
Ölüm məqamınız bir az fərqlidi,
Sən qəhrəman oldun, o, getdi heçdən.
O qəzaya düşüb, köçdü dünyadan,
Sən şəhid olmusan ey igid cavan.
Vətənin uğrunda candan keçmisən,
Bayrağa bükülüb geri dönmüsən.
Yoldaşların deyir, şücayətindən,
Olmusan hər zaman birincilərdən.
İyirmi bir oktyabırda Cəbrayılda sən,
Qanını torpağa qatmısan, bala.
Sən vətən uğrunda şəhid olmusan,
Ən uca zirvəyə çatmısan, bala!
Uca Borçalının, qədim mahalın,
Adını tarixə yazmısan bala.
Borçalı da sənə sayılır vətən,
Soyun- kökün gəlir axı, o yerdən.
Bakıda doğuldun, Bakılı balası,
Vətəni qoruyan,Vətən qalası,
Səninlə fəxr etsin, öyünsün anan.

Fəxr edir səninlə, can,  Azərbaycan!
Atana- anana "sağ ol" deyərək,
Sənin əməlinə dəyər verərək,
Bir neçə medalla, ölümündən sonra,
Səni təltif etdi, Ali Baş Komandan!
Bənzətdim mən səni, qaynım oğluna,
Mənim də Rasimim ölubdu cavan,
Qara torpaq alıb onu qoynuna,
O, da şəhidlərtək qalıbdı cavan,
O, da kam almadı heç bu dünyada.
O, da daş altından səntək baxır.
İncə təbəssümlə gülür, astadan.
Qəddi - qamətli balam, əziz şəhidim,
Mən, sənə də qurban, ona da qurban.
Rasim çox sakitdi, çox mülayimdi,
O həm mehribandı, həm də həlimdi.
Heç kəsin qəlbinə o, dəyməz idi,
Kimsə qarşısında əyilməz idi.
O, mənim qaynım oğlu, öz balam idi.
Alı! Sən də, oldun mənim bir balam!
Oxuyaram Rasimə, həm sənə  "Quran".
Nə qədər yaşayır bu xalq, bu millət,
Sizi əzizləyər qoca, həm cavan.
Ey əziz  şəhidlər, siz ölməzsiniz!
Sizi yaşadacaq, can, Azərbaycan!

26-08-2021

## Birgə baxıb sevinək

İstərəm vətənimdə,
Bir də qanlar axmasın.
Kor olsun düşmən gözü,
Yurduma kəc baxmasın.
Səma ulduzla dolsun,
Bircəsidə axmasın.
Çölümdə, çəmənimdə,
Qönçələr açsın çiçək,
Bax, belə gözəlliyə,
Birgə baxıb, sevinək!

Əzəmətlə ucalsın,
Yenə də Murov dağı.
Vüqarla dalğalansın,
Vətənimin bayrağı.
Kəlbəcərin, Ağdamın,
Qaytarılsın növrağı.
Şüşada xarı bülbül,
Sevincək açsın çiçək.
Bax, belə gözəlliyə,
Birgə baxıb sevinək!

Yenə "Cıdır düzü"ndə,
Günəş gülsün, nur saçsın.
Füzulidən Şuşaya,
Zəfər yolu açılsın!
Qoy şəhid anaları,
Öyünərək, dil açsın!
Onların qarşısında,
Ehtiramla baş əyək,
Bax, belə analarla,
Birgə gülək- sevinək!

Gəlin, dostlar birləşək,
Biz həmişə bir olaq.
Qayıdaq Xocalıda,
Bir gözəl şəhər salaq.
Bir dəmir yumruq olaq
Ermənidən bac alaq!
Düşmənlərin ayağın,

Zəngəzurdan da siləк.
Bax belə gözəlliyə,
Birgə baxıb sevinək!

Qayıdaq Qubadlıya,
Qayıdaq Cəbrayıla.
Qalxaq Xudafərinə,
Qalxaq yalın ayaqla,
Suqovuşan, bəndinə,
Birgə baxıb maraqla.
“İstisu” bulağından,
Sevinərək su içək.
Bax belə gözəlliyə,
Birgə baxıb sevinək!
Ey qazi anaları,
Oğlunla öyün sən də.
Zabit, əsgər anası,
Sən də dayanma gendə!
Liderimlə, xalqımız,
Birləşib çətin gündə,
Birləşib, bir olublar,
Beş barmaq, bir də bilək.
Bu yumruğun altında,
Düşmənlər əziləcək.
Bax, belə gözəlliyə,
Birgə baxıb sevinək!

Bu yumruğun adını,
Preizidentim qoyubdu.
Dəmir yumruq göstərib,
Yağıları qovubdu.
Qələbə qazanaraq,
Müharibəyə son qoyubdu!
Eşq olsun komandanım.
Eyləyək arzu- dilək,
Xalqımla, Liderımlə,
Birgə gülək, sevinək!

Preizidentlə bər zaman,
Bir olaq, yumruq olaq.
Can Azərbaycanlılar,
Biz Qarabağlı olaq,
Düşmənin ürəyinə.

Dərd salaq, qisas alaq,
Onların ayağını,
İrəvandan da silək,
Bax, belə gözəlliyə,
Birgə baxıb,sevınək!

23-05-021

# Köçü geri çəkmişik

*Cocuq Mərcanlıya qayıdış*

Qayıtmışıq, şükür, yurda gəlmişik,
Ayrılığı aralıadan silmişik.
Sevinərək ağlamışıq, gülmüşük,
Aydın olsun,dostlar,bizim gözümüz,
Təbrik edək özümüzü özümüz.

Çox cavandım, yurdumuzdan köçəndə,
Qocalmışam bu illərin içində.
Sevinirəm köçü geri çəkəndə,
Aydın olsun, dostlar, bizim gözümüz,
Təbrikedək, özümüzü özümüz.

Artıq canlanıbdı ata ocağım,
Bizə açıb yenə doğma qucağın.
Görəcəyik kəndimizin növrağın,
Aydın olsun, dostlar, bizim vözsmüz,
Təbrik edək özsmüzü özümüz.

Gəlib çıxdı Vətəninə elatım,
Artıq vardı dildə gözəl bayatım.
Xoş keçəcək burda günüm,saatım.
Aydın olsun,dostlar,bizim gözümüz,
Təbrik edək özümüzü özümüz.

Cocuq Mərcanlıda bir tonqal çataq,
Qoy sevinsin ahıl,cavan, həm uşaq.
Yeni ildə azu- murada çataq…
Tonqal çataq,qoy qızarsın üzümüz,
Təbrik edək özümszü özümüz.

Allahım qorusun bizim İlhamı,
Sevinclə qayıtsın yurduna hamı.
Qumru d izləyib bu izdihamı,
Desin;- Aydın olsun bizim gözümüz,
Təbrik efək özümüzü özümüz!

## Mən sizə inanıram

*Naxçıvan Muxtar Respublikası,*

*Naxçıvan şəhər Şəhidlər Xiyabanında*

Şəhidlər xiyabanın
Hər görəndə ağlaram.
Torpaqlar qayıtmasa
Ölüncə yas saxlaram.

Xocalı şəhərində,
Soyqırımı edənlər.
Dünya qurduqca sizi,
Lənətlə xatırlaram.

İgidlərim, ərlərim,
Ey igid ərənlərim,
Torpaqları qaytarın
Mən sizə inanıram!

Siz ey igid ərənlər,
Vətəninin uğrunda
Özün şəhid verənlər,
Mən sizi unutmaram.

Şəhidlər xiyabanın
Ziyarət eyləyirəm.
İlahidən sizlərə
Rəhmətlər diləyirəm.

## Düzəlibdi növraqaları

***Şuşalılara***

Qədim Şuşa torpağının,
İnsanları çox mərd olub.
Qız- gəlini çox mehriban,
İgidləri comərd olub.

Həsrət qalib neçə illər,
Öz yurduna doğma ellər.
Gözlərindən axıb sellər,
Düşmənləri namərd olub.

Nadir güldür, "Xarıbülbül"
Cəh- cəh vuran,sarı bülbül
Düzənlikdə hər tərəf gül,
Qayaları çox sərt olub.

Qaytarılıb torpaqları,
Düzəlibdi növraqları.
Ordumuzun sayəsində,
Ağızları bal,qənd olub.

Çox sevinir böyük,uşaq
Şuşa olub ta çil- çiraq.
Dalğalanan uçrəng bayraq,
Düşmənlərə qəm,dərd olub.

Öz əzmiylə qalib olan,
Ordusuna hörmət olub.
Siyasətlə zəfər çalan,
Rəhbərinə minnət olub.

## Naxçıvanın mərd ərləri

*Naxçıvanlı şəhidlər*

İgidləri mərd qeyrətli,
Beyrək kimi cəsarətli,
Əbbas kimi şücayətli,
Hüseyin tək, şəhidlərdi
Naxçıvanın şəhidləri,
Naxçıvanın mərd ərləri.

Çağırışına komandanın,
Yubanmadan hay verdilər.
Qorumaqçün torpaqları,
Canlarından pay verdilər.
Naxçıvanın şəhidləri,
Naxçıvanın mərd ərləri.

Neçə şəhər, neçə kənddə,
Vuruşaraq öc aldılar.
" Suqovuşan" adlı bənddə,
Üçrəng bayraq ucaltdılar.
Naxçıvanın igidləri,
Naxçıvanın mərd ərləri.

Zəngilanda, Füzulidə,
Cəbrayılda, Qubadlıda,
Xocavənddə, Xan Şuşada,
Qələbəni siz qazandız,
Sevinirik uğrunuza,
Naxçıvanın mərd ərləri,
Azərbaycan igidləri!

# Vətəni qoruyur qorxmaz igidlər

“Cıdır düzü” qızıl qana boyanıb,
Xarıbülbül boynun büküb dayanıb,
Düşməndədir dərdə Loğman "İstisu",
Ərşə qalxıb burda barıt tüstüsü.
Daşarxında düşmən yuyur əlini,
Harınlamış sığarlayır telini.
Xocalıda qalmayıb daş - daş üstə,
Meyitlərin qalmayıbdı baş üstə.
Perik düşüb Qarabağın atları,
Köçkün olub bu yurdun elatları.
Düşməndədir Laçın, Şuşa, Əskəran,
Kəlbəcər dağılıb olubdu viran.
Əsir düşüb, Füzuli, həm Cəbrayıl,
Nə yatmısan ey millətim, qalx, ayıl!
Yumruq kimi, siz birləşin hər zaman,
Birlik olsan, qələbəyə çatarsan.
Qovun getsin erməni vətəndən.
Dost olmayıb bizə yoldan ötəndən.
Birləşi ki, ruhlansın Milli Ordu,
Ermənidən qurtarsın doğma yurdu.
Ayıq olun, daha qalxın ayağa,
Qovun getsin yurdumuzdan o dığa.
Ey igidlər, mubariz əsgərlərim,
Nərə çəkin igidlərim, ərlərim!
Düyünlənin bir əldə yumruq kimi,
Təpəsinə vurun siz "hərami"nin.
Siz oxuyun Azərbaycan himnini,
Döyəcləyin,qan içən, ermənini.
Təmizləyin Xankəndini yağıdan,
Azad olsun,doğma vətən dığadan.
Dalğalansın vüqarla üçrəng bayraq,
Düşmənin üstündə qələbə çalaq.
Qorumaqçün rəhbəri Əmiraslan,
Öz canını eyləyib ona qurban.
Naxçıvan şəhidlər xiyabanında,
Uyuyur bizim bu Milli Qəhrəman.

Vətəni uğrunda neçə mərd-igid,
Canlarlından keçib, olublar şəhid.
Mehdilər, Həzilər, mərd Gəraylar da,
Yaşayır həmişə xoş xəyallarda.
İsmət Qaylbovlar, Tofiq, Alılar,
Məmməd Əsədovlar şəhid olublar.
Həm də ki, olublar Milli Qəhrəman,
Onları unutmaz xalqım heç zaman.
Nəzər salın siz bir anlıq keçmişə,
Millətimiz məğrur olub həmişə.
Yaşayıbdı Koroğlular, Nəbilər,
Vətəni ucaldıb Məmməd Əminlər.
Babək hünərliydi bir polk yağıdan,
Düşmənə dərs verib qorxmaz Cavidan.
Yurdumuz böyüdüb cəsur Qazan xan.
Düşməndən qorxmayıb Qaraca Çoban,
Beyrək də yurdumun qəhrəmanıdır,
Xalqım igid- ərləriylə tanınır.
Öz yolundan dönməyibdir Nəimi,
Dabanından soyulubdu Nəsimi.
Yazıb yaradıbdı neçə dastanlar,
Nizami, Füzuli tanınır onlar.
Cavad xansa qoruyubdu Gəncəni,
Məhsəti, Natavan sevib Gəncəni.
Hünər göstəribdi Cahan pəhləvan,
Vətəni qoruyub mərd Qızıl Aslan.
Eldəniz böyüdüb bu oğulları,
Mömünə Xatunun mərd oğulları.
Tanınıbdı hünəriylə Naxçıvan,
Öyünübdü Heydəriylə Naxçıvan.
Xalqımın qəhrəman qızı Həcər də,
Yağıyla vuruşub, qorxmaz hünərlə.
Nigar olub Koroğlu silahdaşı,
Ərəbizəngi qoparıb neçə başı.
Əyilməyib Heyran xanım, Məhsəti,
Şirin verib Xosrova nəsiyyəti.
Var bu elin Çingizi, Salatını,
Düşməndən qoruyub öz elatını.
Milli qəhrəmanlar, igidlər olub,
Vətəni uğrunda şəhidlər olub.

Xalqımın içində çoxdu qəhrəman,
Yurdumu yağıdan təmizlər,inan!
Çox öyünmə,- harınlamış sərsəri,
Onu bil ki, qabaqdadır dərd- sərin.
Soxulmusan sən özgənin yurduna,
Arxa ollam mən də Milli orduma!
Əmr versə nə vaxt mənim rəhbərim,
Boğazlayar səni, qorxmaz əsgərim!
Böyütmüşəm mən də iki igid-ər,
Bir leytenant, biri sıravi əsgər!
Sevdirmişəm mən onlara vətəni,
Göz qırpmadan əzib tökərlər səni.
Çıxararlar Zəngəzurdan, Göyçədən,
Seçilməzsən zəmi əzən "kəlçə"dən.
Ta qoymazlar səni, özgə zəmiyə,
Bu dərs olar, sənintək həramiyə.
Ayaqlama torpağımı, "qantökən",
Quzğun kimi leşə qonan," qaniçən".
Yalançı tək tanıtmısan özünü,
Daha keçməz, dünya açıb gözünü.
Biyabır olmusan sən ki dunyada,
Haray çəksən, kimsə gəlməz fəryada.
Bilinmir nəçisən,  kimsən? Bilmirlər.
Lənət oxuyurlar səninçün ellər.
Sən hardan gəlmisən, azğıntı millət,
Səninçin analar eyləyir nitrət.
Mən də sənə lənət dedim, erməni,
Hünərin var, silah götür vur məni.
Mən Qumruyam, sözdən sərhəd çəkərəm,
Lazım gəlsə öz canımdan keçərəm.
Qoruyaram öz yurdumu qanımla,
Yaşayaram, əyilməz amalımla!

# Qarabağım gülşad olub

Yurdumda yağılar yuva salmışdı,
Dağların başını duman alımışdı.
Həsrətdən bənizim- bəndim solmuşdu
İndi Qarabağım gülşad olubdu,
Xalqımız sevinib, çox şad olubdu.

Qaçqındım,susmuşdum dinməz olmuşdum,
Kimsəylə danışıb,gülməz olmuşdum.
Dərdim çox, kimsəylə bölməz olmuşdum,
İndi Qarabağım gülşad olubdu,
Anaların qəlbi çox şad olubdu.

Ot basan cığırlar bax, canlanıbdı,
Şuşada bayrağım dalğalanıbdı.
"Cıdır düzü"ndə segah havalnıbdı,
Şuşam,Qarbağım gülşad olubdu
Xan əminin ruhu çox şad olubdu.

Birləşib rəhbərlə sevdiyi ellər,
Birləşib yumruğa dönübdü əllər.
Silahları atıb,qaçıb duşmənlər,
Şükür Qarabağım gülşad olubdu,
Müzəffər Liderim çox şad olubdu.

Ordum qalib olub fərasətiylə
Milli liderimiz siyasətiylə,
Dünya heyran qalıb, bu vahidliyə
44 gündə çalınan bu qələbəyə
Qardaş Türküyəmiz çox şad olubdu.

Qanınızı aldıq, şəhidlərimiz,
Məzarınızda daha, rahat yatın, siz
Qələbə sevincı yaşayırıq biz
İndi Qarabağım gülşad olubdu,
Şəhidlərimizin ruhu çox şad olubdu.

Açmışam dəftəri, şad olub qələm,
Qumruyam qürurla gərilib sinəm.
Yazıb vəsf eyləyim səni ey vətən,
Gözəl Qarabağım gülşad olubdu
Öndərimin ruhu çox şad olubdu.
Bütöv Azərbaycan çox şad olubdu!

08-08-2021

# Yurdumu sevirəm

Sevirəm yuddumun bahar çağını,
Yazda çiçəkləyən meyvə bağını.
Payızda saralan yarpaqlarını,
Bahardan soraqlı qışın, sevirəm.

Sevirəm yurdumda dağı- aranı,
Yaşılbaş sonasın, ahu- ceyranı.
Gözəldir yurdumun bütün hər yanı,
Yurdumun qayasın,daşın sevirəm.

Sevirəm vətənin daş-torpağını,
Qələbə müjdəli səs-sorağını.
Sevirəm xalqımın bu növrağını,
Qalib əsgər çalan marşı sevirəm.

Sevirəm yurdumun qalib rəhbərin,
Xalqımın önündə gedən liderin!
Bu növrağı quran ulu Heydərin,
Bizimçün qoyduğu izi sevirəm!

# Şeir yazaram

Açılan güllərdən hörərəm çətir,
Qızılgül kolutək yayaram ətir.
Nəğmə bəstələrəm mən sətir- sətir,
Muncuqtək söz qoşub, şeir yazaram.

Çəməndən, çiçəkdən ilham alaram,
Söz- sözə calaram şair olaram.
Şairlər içində lövbər salaram,
Özümə sözlərlə səngər qazaram,
Muncuqtək soz qoşub, şeir yazaram.

Nə var ki, düzməyə varağa sözü,
İstəsəm bir gündə düzülər yüzü.
Qane eyləməsə sözlərim sizi,
Özüm yazdığımı özüm pozaram,
Muncuqtək söz qoşub, şeir yazaram.

Qumruyam, qələmim vardı əlimdə,
Vətən nəğmələri vardı dilimdə.
Tərənnüm eylərəm şeirlərimdə,
Vətəni, anamı, doğma elimi,
Mən də öz xalqımın şair qızıyam,
Muncuqtək söz qoşub, şeir yazaram.

24-12-2004

## Ömrü yaşamadım mən ürəyimcə

Əzəldən beləymiş mənim taleyim,
Həzin nəğmə çaldı, kamanım, neyim.
Bilmirəm kimdəndir mənim gileyim,
Ürəyim kövrəkdir, uncədən, incə
Ömrü yaşamadım mən ürəyimcə.

Qələmi götürdüm,mcuşa gələndə,
Atılan daşlara, tuşa gələndə,
Qəm ilə sevincim qoşa gələndə,
Qəmə yüyürmədim, qaçdım sevincə,
Ömrü yaşamadım mən ürəyimcə.

Özümə döz dedim çətində, darda,
Dözdüm, üşüsəmdə boranda, qarda.
Anamı itirdim mən ilk baharda,
Qəlbimdə yel əsdi, əsdi xəfifcə,
Ömrü yaşamadım mən ürəyimcə.

Başımın üstündə hicran dayandı,
Gəncliyim tez ötdü ömrüm talandı,
Baxdım ömrüm bitir, gedən karvandı,
Nəbzini tutmadım yandım gizlicə
Ömrü yaşamadım mən ürəyimcə.

Yazıb oxumaqda gözlərim qaldı,
Bu ömür yolunda,  izlərim qaldı,
Yazım Eh! Bəlkə də sözlərim qaldı,
Şeirlərim, məni deyir fikrimcə,
Ömrü yaşamadım mən ürəyimcə.

Qumruyam, olsa da əldə qələmim,
Bitib tükənmədi dərdim, fələyim,
Kaman tək inləyim, ney tək mələyim.
Beləymiş qismətim, yazım, taleyim.
Ömrü yaşamadım mən ürəyimcə,
Yaşaya bilmədim mən ürəyimcə...

**Şəhid Maqsud Məmmədovun əziz xatirəsinə**

Göygöldə doğuldu bir ər böyüdü,
Vətən sevgisiylə, ürək oduyla,
Ata yox, anadan aldı öyüdü,
Böyüdü atanın "şəhid" adıyla.

Sevdirdi anası ona Vətəni,
Dedi ki: - "Vaxt gələr, əsgər olarsan,
Atanı şəhid edən yağı- düşməndən,
Gedib, qisasını özün alarsan."

O, qalxdı, böyüdü igid ər kimi.
Atasına bənzər bir igid oldu.
Çağırış edəndə Ali Komandan,
Qorxub, çəkinmədən o, öndə durdu.

Atasına bənzər bu igid oğul,
Suladı qanıyla, dağı-dərəni.
Vətəni uğrunda can verən ərin,
Atasıtək oldu, bayraq, kəfəni.

Nə qədər yağını qırıb tökdü o,
İgid atasının qisasın aldı.
Zəfərə çatmamış şəhid olsada,
Qalib ordum ilə o, zəfər çaldı.
Atasıyla birgə o, zəfər çaldı,
Bütün xalqım ilə o, zəfər çaldı.

## Əziz şəhid bacısı

Önə əymə başını,
Əziz şəhid bacısı.
Süzmə gözün yaşını,
Əziz şəhid bacısı.

Bilirəm çox çətindi,
Sənə qardaş itkisi.
Bilki, bu ağır xəbər,
Qəmə saldı hər kəsi.

Bu dünya belə qalmaz,
Hər əsgər şəhid olmaz.*
Şəhidlərin qanını,
Ordumuz yerdə qoymaz.

İgid idi qardaşın,
Uca eylədi başın.
Qardaşınla qürurlan,
Qurut gözünün yaşın.

O, ölməyib, yaşayır,
Şəhid adın daşıyır.
O, tək sənin deyilki,
Bacılar qardaşıdır.

Qoruyub öz xalqını,
Öz doğma torpağını.
Seçilmişlər içinə,
Həkk eyləyib adını!

Yetişib Qarabağa,
Qanın qatıb torpağa.
Hər kəs layiq görülməz,
Zirvəyə ucalmağa.

İnşəllah Allah verər,
Olar oğul övladın.
Övladına qoyarsan,
Yaşadar onun adın.

Doğular bir ər - igid,
Elçin adın daşıyar.
Dayısının adıyla,
Amalıyla yaşayar.

Qoy xar olsun yağılar,
Çoox Elçinlər gələcək...
Üçrəngli bayrağımız,
Daima yüksələcək!

Qəhrəman Elçinidə,
Xalqım daim sevəçək.
Şəhidlər yaşayacaq,
Şəhidlər ölməyəcək!..



# Mündəricat

Vətən sevgisi, insanın mənəvi varlığının məhək daşıdır.........................................................3
Zəfərə addım-addım müəllifdən............................11
Ulu Öndərim........................................................12
O gedir Ulu Öndərin yolu-iziylə..........................14
Əmiraslan Rza oğlu Quliyev................................16
Gördüm.............................................................18
Birinci Qarabağ şəhidi Canpolad Əsgərov............22
Vətən səni unutmaz qəhrəman şəhidim.................23
Qarabağ Azərbaycandır.......................................24
Əzminizə qurban olum........................................26
Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov.............................................................29
Həmdəm Mayıl oğlu Ağayev...............................31
Oğlumun komandiri............................................34
İlkin Cfər oğlu Rzayev ......................................37
Can mayorum......................................................40
Ülvü Möhsün oğlu Hüseynov...............................42
Siz and içdiniz, şəhidlərim..................................44
Əmrah Şahid oğlu Əkbərov..................................46
Əziz şəhidimiz Əkbərov Əmrahın anası Dürdanə xanımın xatirələrindən...........................49
Əmrah, qəhrəmantək şəhid olmusan....................51
Adınız tarixi yazılıb sizin....................................53
Zəfərə addım-addım............................................57
Bahadur Anar Süleyman oğlu..............................60
Mənim ölməz şəhidim.........................................61
Ramazan Əbülfət oğlu Göydağlı..........................63
Əzib tökəcəyəm yağı düşməni.............................66
Haydı dostlar Qarabağa.......................................73
Siz qayıtdız Murovdağa.......................................75
Qələbə bayramı...................................................78
İbrahim Nəcəfqulu oğlu Əliyev...........................80
Sizi sevir Azərbaycan..........................................81

Ağaəmi Elçin oğlu Heybətov..............................84
Sən də çatdın belə ali məqama............................86
Emin Rəşadət oğlu Sadiqov.......88
Unutmazki sizi, vətən......................................90
Vüsal Salamov...............................................92
Mətin dayan gözəl anam...................................93
Qoşa-Dizə igidləri.........................................95
Bayatılar......................................................96
Əyyub Rasim oğlu Süleymanov.......................97
Ay ata, ay ana qalın salamat............................100
Vüsal İsmayılzadə..........................................102
Bizim Vüsal...................................................104
Səndə öz payın var.........................................106
Qalib Əsgər..................................................108
İtgin igid......................................................110
Şəhid gül......................................................112
Şöhrət oldunuz..............................................114
Ümid Novruzlu..............................................116
Şükür Bayram oğlu Hacıyev........................118
Vətən sizə oğul dedi......................................120
Rasim İsmayıl oğlu Ramazanov...................122
Can Qarabağ................................................129
Tamerlan İqrar oğlu Əliyev..........................131
Vətənə layiq övlad........................................132
Zeynallı Əvəz Vəli oğlu...............................135
Alı Nofəl oğlu Həsənli.................................141
Rasimə bənzərsən........................................143
Birgə baxıb sevinək......................................147
Köçü geri çəkmişik......................................150
Mən sizə inanıram........................................152
Düzəlibdi növraqaları...................................153
Naxçıvanın mərdlərləri.................................154
Vətəni qoruyur qorxmaz igidlər...................155
Qarabağım gülşad olub.....................................160
Yürdumu sevirəm...............................................162
Şeir yazaram.....................................................163

Qumru Qüdrət Naxçıvanlı

Zəfərə addım-addım

*"Elm və Zəka" mətbəəsində çap olunmuşdur.*

Direktor: Səbuhi Aslan

Təkrar çap

Çapa imzalanmışdır: 10. 01.2024
Şərti çap vərəqi 19,5 sifariş № 200
Kağız formatı 60x90  1/16 tiraj 100
Ünvan: Bakı şəhəri, Mətbuat prospekti 529 cu məhəllə